# GÜNƏŞİN MƏDHİ

İslam İnqilabının Böyük Rəhbəri Ayətullah Seyid Əli Xameneinin həzrət İmam Xomeyni haqda xatirələrindən seçmələr

## Qanın xəncərə qalib gəlməsinə dair bəyanat

Mübarizə dövründə onun istifadə etdiyi bütün üsullar yeni idi. Digərləri və hətta dostları da bu yenilikləri məqbul saymırdılar. Siz son bir il ərzində onların hamısının yeni olduğunu və düz hədəfə dəydiyini gördünüz. Onların biri də hədəfdən yayınmadı. Halbuki çox zaman irad bildirir və etiraz edirdilər. Qanın xəncərə qalib gəlməsinə dair bəyanat verəndə onun Tehran və Qumdakı yaxın dostları fikirləşdilər ki, görəsən bu məsləhətdir, yaxşı və düzgündür? İmam isə dağ kimi möhkəm dayandı və qanın xəncərə qalib gəldiyini gördünüz. O, Fransaya gedəndə hamı təəccübləndi, heç kəs bunu gözləmirdi. İrana qayıtmaq qərarına gələndə də hamı nigaran idi... Mən bundan fərqli düşünəni görmədim. Kiminlə rastlaşdıqsa, gördük belədir. Bu böyük insanın, bu böyük rəhbərin həssas zamanlarda vurduğu zərbələrin, istifadə etdiyi taktika və üsulların hamısı dəqiq idi. Mübarizənin aqibəti və zaman bunu sübut etdi.

İslam Respublikası partiyasının daxili siyasəti haqda çıxışdan: 1979.

**İmamın xalqla əlaqəsi**

Bizim rəhbərimiz və imamımız böyük ilahi qüdrəti və əzəməti ilə yanaşı, həmişə xalqı uca tutdu. İmamın Parisdən Tehrana gəldiyi ilk günlərdə, yəni bu tarixin ən həssas anlarında, bütün beynəlxalq analitiklərin və siyasi müşahidəçilərin İranı əsrin ən böyük hadisələrinin mərkəzi saydıqları, hamının İranda nə baş verəcəyini diqqətlə izlədiyi həssas anlarda imam xalqın yanına getdi. Səksən yaşlı qoca öz istirahətini, yuxusunu xalqa qurban verdi. Siyasi xadimlər gəlib deyirdilər ki, ağaya deyin vaxtını bu qədər xalqa ayırmasın, ümumi görüşlərə sərf etməsin, imkan yaratsın siyasətçilər, mütəfəkkirlər və görkəmli şəxslər gəlib ağa ilə böyük siyasi məsələlər haqda söhbət etsinlər. İmam bütün bunların cavabında deyirdi ki, mənim siyasətçilərlə, mütəfəkkirlərlə və böyük adamlarla işim yoxdur, mənim işim xalqladır; onlar da gəlirlərsə, xalqla birgə gəlsinlər. O, düzgün anladı, düzgün təyin etdi. Əgər vaxtını siyasətçilərlə söhbətə sərf etsəydi, biz hələ də Antimilli Şura Məclisindən cənab Bəxtiyarın çıxışını eşidirdik. O, xalqın qarşısına çıxdı, onunla xalq arasında maneə olmadı. Yüz dəfə, min dəfə dedilər ki, ağa, sizin canınız təhlükədədir. Dedi ki, qoyun təhlükədə olsun, mən öldürülsəm, bu, xalqın xeyrinə olacaq. Mühafizəsiz şəkildə milyonlarla insanın qarşısına çıxıb söhbət edirdi. Qadınlar, kişilər, uşaqlar gəlirdilər. Uşaqları alıb öpür, əzizləyir, ata-analarına qaytarırdı. O, xalqın içinə girdi, xalqla işini davam etdirdi, xalqa arxalandı və gördünüz ki, qalib gəldi.

Təxribatlar qarşısında ümumi sayıqlığın əhəmiyyətinə dair çıxışdan: 1979.

## Tək ağacın möhtəşəm yalqızlığı

Bir zaman bizim əziz rəhbərimiz yalqız idi. Bu məmləkətdə iki mübariz qrup vardı, onların hər ikisi rəhbərimizin nəzəriyyəsini rədd edirdi. Bir qrup rahatlığını düşünən, stol arxasından durmayan və rahat çarpayı üzərində istirahət edən siyasətçilərdən ibarət idi. Onlar oturub yeməyə, bursiya almağa, ağalıq etməyə, təkəbbürlə bir söz deyib xalqın ağsaqqalı olmağa, hansısa siyasi bir hadisədə bir kəlmə söz deməyə, amma başağrısı qəbul etməməyə alışmışdılar. Onlar bizim rəhbərimizin üsulunu qəbul etmirdilər, deyirdilər ki, ağa əbəs yerə bu qədər şaha toxunur, şah bu məmləkətdən gedəsi deyil; şahı rədd edirsə, heç olmasa, naibüssəltənə üsulunu qəbul etsin. İmam isə möhkəm dayandı və dedi ki, xəttimizi qəbul etməyənlər bizimlə görüşə gəlməsinlər. İddialı siyasi şəxsiyyətlərin Parisdə imamla görüş icazələri əvvəlcə İranda şahlığı rədd etmələrindən, qınamalarından asılı idi. Bundan sonra imamla görüşə bilərdilər. O bunlarla hətta söhbət etmək, müzakirə aparmaq da istəmirdi. Bir qrup bu idi. Digər qrup isə radikallıq, solçuluq və fədakarlıq iddiaları ilə mübarizə aparan, silahlı mübarizəni yeganə yol sayanlar idilər. Onlar da deyirdilər ki, ağa əbəs yerə israr edir, bu mübarizə belə işlərlə qalib gəlməyəcək; vaxt itirməyin, silahlı mübarizə aparmalı, əlimizə tüfəng götürməli və xalqı səfərbər etməliyik. Kimin imamla əlaqəsinin olduğunu düşünürdülərsə, tez yanına gedib deyirdilər ki, bizi silahlandırın. Bunu deyənlər əksərən adi insanlar idilər, amma bu nəzəriyyə silahlı mübarizəni özlərinə şüar seçən qruplara məxsus idi. Onlar deyirdilər ki, silahlanmayınca və xalqı silahlandırmayınca şah ölkədən gedəsi deyil. İmam həyəcanlanmadı, əl-ayağını itirmədi, öz xəttindən yayınmadı və yolunu davam etdirdi. O dedi ki, siyasi mübarizə vasitəsi ilə rejimə böyük sıxıntı yaradacağıq, o da ya intihar edəcək, ya da qaçmağa məcbur olacaq. Ölkənin mübariz qrupları imamın fikrinə qarşı çıxırdılar. Rahatlıq və fürsət axtarışında olan mürtəce qrupları kənara qoyaq. Onlar ümumiyyətlə mübarizə

haqda düşünmür və hər bir mübarizəni rədd edirdilər. Amma o, yalqız idi və özü bir ümmət idi: "Həqiqətən, İbrahim bir ümmət idi"[1]. O, susuz səhrada möhtəşəm yalqızlığı ilə fırtınalara, qumlara, yandırıcı günəş şüalarına və sususluğa qalib gələn, ətrafı yaşıllaşdırıb gözəl ətrə boyayan tək ağac kimi möhkəm dayandı və mübarizəni səmərəyə çatdırdı.

"Peyğəmbərlərin qədim mübarizələrinin dövrümüzdəki nümunəsi" adlı çıxışdan: 1979.

---

[1] Nəhl/120.

## Bir inqilab qaydası

Qardaş və bacılar! Qədimdən bizim bir formulumuz vardı. O formul bu idi ki, inqilabın, xalqın və İslamın düşmənləri tərəfindən gücləndirilən hər hansı təşkilat və ya hərəkat ya batildir, ya da onda batil çalarları var. İnqilab düşmənləri tərəfindən hücuma məruz qalan hər hansı təşkilat və cəmiyyət isə haqlı və düzgündür; onu dəstəkləmək, gücləndirmək və qorumaq lazımdır. Xalq illərlə bu formulu başa düşüb. Biz bir dəfə partiyanın Mərkəzi Şurasının üzvləri ilə birgə imamın yanına getmişdik. Qardaşların biri söhbətində dedi ki, partiyaya hücumlar olunur, təzyiqlər edilir. İmam buyurdu ki, bizə də həmişə belə hücumlar edilib və biz bu hücumlardan qazanmışıq. Mən 1963-64-cü illərdə şaha xəbər göndərdim ki, sizin və SAVAK-ın mənə qarşı bu qədər təzyiqi mənim xeyrimədir, xalq bununla mənim haqlı olduğumu düşünür və doğru dediyimi anlayır. Çünki doğru deməsəydik, siz bizə bu qədər hücum etməzdiniz. Bizə deyirdilər ki, siz hücum və zərbələrə məruz qaldığınız üçün yolunuzun düzgün olduğunu bilirik. Siz də özünüzün haqlı olduğunuzu anlayın. Bu, reallıq və bizim üçün qəti qaydadır.

"Təşkilatın zəruriliyi və onun davamı" adlı çıxışdan: 1980.

## Xalqın imama münasibəti

Xalq imama həqiqətən eşq bəsləyir. İmam adətən həftədə 1-2 dəfə televiziyada görünürdü və hansısa qrupla görüşdə etdiyi çıxışı yayımlanırdı. O, bir dəfə xəstələndiyindən 10-15 gün efirdə görünmədi. Çoxdandır imamı görməyən bir şair birdən-birə televiziyada imamı görəndən sonra bir qəsidə dedi. Bu qəsidə həqiqətən daş qəlbi əridər. Deyir ki, ey əziz imam, ey böyük imam, mən 15 gündür sənin üzünü görmürəm... Gözəl bir qəsidədir. Baxın, şeir bir xalqın hisslərini tərənnüm edən amildir, boş yerə əmələ gəlmir. Əslində cəmiyyətdə bir düşüncə, fikir və hiss oturuşmuş olur və sonra həmin cəmiyyətin şairi ona uyğun bir şeir deyir. Bu, təbii şəkildə baş verir, zorla bir düşüncəni şairə verib şeir söyləməsini tələb etmək olmaz. Bu bizim cəmiyyətimizdə bir ənənəyə çevrilmişdir. İmamla xalq arasında bu mənəvi əlaqə, xalqla hökumət və İnqilab Şurası arasında olan bu səmimilik və dostluq bu inqilabın səciyyələrindəndir. Bu baxımdan, sizin inqilabınız ümid yaratmış və həqiqətən bir baca açmışdır. Məhz buna görə Şərq və Qərb bu inqilabın qarşısında səf çəkib əngəl törədir, onunla vuruşurlar. Allah isə bizə kömək edir. Allaha şükür olsun!

"Mədəni inqilab" seminarında çıxışdan: 1980.

**İmamın xalqa və ruhanilərin roluna inamı**

İmam bu hökumətin əsasını elə qurmaq istəyir ki, kiçik və xırda işlər bir düyünə, problemə çevirlməsin. Bunun üçün məmurlar, nazirlər, Baş nazir, müavinlər və yüksək vəzifəli şəxslər mütləq bu meyarlara malik olmalıdırlar. Bu meyarlar hansılardır? İslama, inqilaba, xalqın böyüklüyünə, dəyərinə inam və xalqa arxalanmaq. Kimsə düşünməsin ki, ziyalı və ali təhsilli təbəqəyə nisbətən adi xalqın dəyəri yoxdur. Xeyr! Bu, yanlış fikirdir və inqilabımızın əsaslarına ziddir. Görürsünüz ki, imam xalqa arxalanır. Bir dəfə imam bir qədər söhbət edəndən sonra biz onun yanına getdik. Həqiqətən adam imamın çox, ucadan, həvəs və həyəcanla söhbət etməsinə görə nigaran olur. O, ürək xəstəliyindən yeni qalxıb. Bu baxımdan, təbii ki, hamı nigaran olur. Biz dedik ki, yaxşı olar siz bu çıxışları bir qədər azaldasınız, söhbət etmək istəyirsinizsə, ən azı uzun çıxışlar etməyin, məsələn, 15 dəqiqə ilə kifayətlənin. O isə bəzən 45 dəqiqə və bir saat danışır. O buyurdu ki, mən asta-asta danışıram. Sonra dedi ki, xalqın bir qrupu buraya gələndə mən gedib onlarla danışmaya bilmərəm. Bu, xalqa inamdır. Bilin ki, bu inam olmasaydı, bu inqilab hələ də qələbə çalmamışdı. Bu məmləkətdə inqilab, mübarizə və hərəkat çox olub. Bu hərəkatlarda nə zaman xalqa axralanmışlarsa, qələbə çalmışlar, xüsusi bir təbəqəyə arxalanan isə məğlub olub. Bizim inqilabımız da dəqiqliklə xalqın içinə girməyincə davamsız və zəif bir hərəkat idi, qələbə çalması bəlli deyildi və zalım rejim tərəfindən əzilirdi. Ruhanilərin hünəri budur ki, inqilabı cəmiyyətin içinə çəkə bildilər. Mən imam üçün həkim sözünü ən uyğun söz bilirəm: "Həqiqətən, Loğmana hikmət verdik"[1]. Bu böyük və müstəsna insanda sözün əsl mənasında ilahi hikmət mövcuddur. O, nə dediyini və nə üçün dediyini yaxşı bilir.

"İmamət və rəhbərlik" mövzusunda çıxışdan: 1980.

---

[1] Loğman/12.

## Qətiyyətli imam

Biz dünyadan çəkinməməliyik. Məlum məsələdir ki, biz dünyanın bir çox siyasi ənənələrini qəbul edə bilmərik. Bunlar bizim mədəniyyətimizə, ideologiyamıza və düşüncəmizə uyğun deyil. Biz bunları qəbul edə bilmərik və bunu açıq şəkildə dünyaya deməliyik. Biz dünyanın siyasi xadimləri ilə diplomatik dillə danışanda da ideoloji prinsiplərimizi unutmamalıyıq. Biz dünyaya deməliyik ki, bu gün kişi və qadın üçün qəbul olunan azadlıq və özbaşınalığı qəbul etmirik. Biz buna görə xəcalət çəkməməliyik. Biz dünyaya deməliyik ki, istər Şərqdə, istər Qərbdə mövcud olan hakimiyyət və iqtisadiyyat üsulunu qəbul etmirik. Bundan utanmamalıyıq. Təəssüf ki, bizim bəzi siyasətçilərimiz bu qaydanı nəzərə almır, sanki dünya xalqlarından, dünyanın tanınmış şəxsiyyətlərindən xəcalət çəkirlər. Bu ümmətin imamı xəcalət çəkmədi və sözünü açıq dedi. İmam bu məmləkətdə şahlığı istəmədiyini deyəndə bugünkü iddialı siyasətçilərin heç biri bu barədə fikirləşməyə cürət etmirdilər. O, açıq şəkildə və qətiyyətlə sözünü dedi. Biz də belə etməliyik. Biz İslama, İslam hakimiyyətinə güvənir, tövhidi, İslamı, Allahı qəbul etməyən hər bir hökuməti və düşüncəni küfr sayırıq. Bunu dünya xalqlarına deyək, bundan utanmayaq. İnsanın dünyada nəzakətli siyasi xadim kimi tanınmağa çalışması bir növ süni rəğbət axtarışıdır. İmamın ilahi gücünün sirlərindən biri heç zaman belə məsələləri nəzərə almamasıdır. Dünyanın birinci böyük gücünün birinci siyasətçisi, yəni ABŞ prezidenti imama xüsusi məktub yollayır və imam məktubun radiodan oxunmasını tapşırır. Bu, beynəlxalq ənənə və nəzakətə ziddir, amma bu işi görür. Biz ABŞ-la, SSRİ ilə barışa bilmərik. Biz bu böyük güclərlə barışa bilmərik. Kiçik güclərlə işimiz yoxdur. Əgər kiçik güclər də bizə hücum etsələr, onlarla da barışmarıq. Bunu bütün dünyaya açıqca söyləmək lazımdır. İmamın prinsip və üsullarına sadiq olan dövlət rəsmilərinin fikirlərində bizim Şərq və Qərb önündə möhkəm dayanmağımıza dair açıq və qətiyyətli sözlər görürsünüz.

"İslam təlimləri" mövzusunda çıxışdan: 1980.

## Dövrümüzün ən elmli din alimi və fəqihi

Bu gün bu cəmiyyəti idarə edən və 1962-ci ildən indiyə qədər 19 ildir idarə etməkdə olan bu böyük rəhbər dövrümüzün ən elmli din alimi və fəqihidir. Bunu sizə dünyadan köçmüş və hazırda yaşayan bir çox fəqihlərin dərsində iştirak etmiş bir adam deyir. Mən nadir istisnaları çıxmaq şərtilə sizin tanıdığınız fəhiqlərin hamısının dərslərində iştirak etmişəm. Mənim fikrim budur ki, imam onların hamısından elmlidir. Onların çoxu müctəhiddirlər, bunda şübhə yoxdur, amma müctəhid və daha elmli müctəhid məsələsi var.

Ən elmli fəqih və fiqhdən əlavə fəlsəfə, irfan və digər belə elmlər üzrə mütəxəssis və müəllim olan bu insan gənclik və yeniyetməlik çağından, yəni sizin yaşlarınızdan siyasi işlərə qoşulmuş, böyük ruhani siyasətçi olan Seyid Həsən Müdərrislə əlaqəsi olmuşdur. O təxminən qırxa yaxın yaşlarında mərhum Vəzirinin xatirə dəftərinə bəlli qeydləri yazmışdır. Onun qırxa yaxın yaşlarından belə yazısı var. Siz bu qeydlərə baxsanız, onun bütün əsas məsələlərdən və siyasi hadisələrdən xəbərdar olan inqilabçı və siyasətçi olduğunu düşünərsiniz. Mən bu yazını onun öz xətti ilə Yəzddə mərhum Vəzirinin xatirə dəftərində görmüşəm. İndi də nəfis yazılardandır və Yəzddə durur. O, 2-3 səhifəlik yazısını bu müqəddəs ayə ilə başlayır: "(Ey Peyğəmbər! Bu müşriklərə) de: “Mən sizə ancaq bir öyüd verəcəyəm. Allah xatirinə (məni dinlədikdən sonra məclisimdən) iki-iki, bir-bir durun (yaxud: qiyam edin), sonra da düşünün"[1]. Bundan sonra isə Allah üçün qiyam haqda geniş mövzu açaraq bu ayəni öz dövründə xalqın ictimai və inqilabi vəzifəsi ilə uyğunlaşdırır. Bu insan inqilabi təfəkkürdə bu qədər səriştəli, iradəli və biliklidir.

Mərhum Hacı Molla Məhəmməd Cəfər (Ayətullah Müctəhidi) mədrəsəsinin müəllim və tələbələri ilə görüşdə çıxışdan: 1981.

---

[1] Səbə/46.

## Quranla tanış ürək

İmam İrana dönən gün biz orada onu ziyarət etdik. O, gecə Rifah mədrəsəsinə gəldi. Orada onu gördük, amma əziyyət verməyək deyə yaxınlaşmadıq. Hamı ətrafına toplaşıb onu öpürdü. Düşündüm ki, ən azı mən bir nəfər ona əziyyət verməyim, sonra görüşərəm. Növbəti gecə, ya da bir-iki gecə sonra adam göndərib məni və İnqilab Şurasının üzvü olan digər qardaşları çağırdı. Otağa daxil olanda imamın oturub Quran oxuduğunu gördüm. Nə zaman? İmamın İrana dönüşündən ik-üç gün sonra. Yəqin xatırlayırsınız ki, o zaman İran xiyabanında və onun ətrafında necə qələbəlik idi. Camaat imamı görüb getmişdi. Bundan əlavə, görkəmli şəxslər, siyasətçilər, ruhanilər və qədim dostları da imamın yanına gəlmişdilər. Biri təklif irəli sürüb, biri nəsə soruşub, biri bir söz deyib - imam daim məşğul olub. Gecə yenə də bir qrup görüşməyə, bir qrup da işdən ötrü gələcək. Gecənin sonuna qədər imamın işi vardı. Amma belə bir iş rejimində şam və işa namazlarından sonra bir otaqda yalqız oturub sanki dünyada heç bir iş baş verməmiş kimi Quran oxuyurdu. Yəni imam bir gün də Quranı yaddan çıxarmırdı, daim Quran oxuyurdu. Görün bu qəlb Quranla necə tanışdır!

Quran təfsiri dərslərindən: 1982.

**Səhnədə olan imam**

Allah və İslam rəhbəri hər bir hadisəni, xalqın hər bir işini görür və onlara nəzarət edir. Rəhbərin mənası budur. Təbii ki, Peyğəmbərin rəhbərliyi ilahi hidayətlədir. Başında bir imamın durduğu cəmiyyətimiz və ümmətimiz varsa, bu imam xalqın ona aid olan bütün problemlərini həll etməli və daim səhnədə olmalıdır. Mübarizə dövründə də belə idi. İmam qarşıya çıxan hər bir məsələdə iştirak edir, heç bir yerdə insanları çaşqın durumda buraxmırdı. Məsələn, Abadanın Reks kinoteatrı yandırılanda hamı çaşqın halda idi, məsələnin nədən ibarət olduğunu, hansı mövqeyi seçməyin, nə iş görməyin lazım olduğunu bilmirdilər: Bu işi şah rejimimi edib, iraqlılarmı, təxribatçılarmı? Birdən-birə hamıdan tez imamın bəyanatı gəldi. Hələ İranda olanlar, hətta mübarizlər bəyanat verməmiş imamın bəyanatı xalqa çatdı. Təsadüfən vurduğum bu misalı yaddan çıxarmıram. Reks kinoteatrında yanğın törədiləndə biz Ciroftda sürgündə idik. Mən, mərhum Rəbbani Şirazi, Rəbbani Əmləşi və digər dostlar orada idik. Bu xəbər bizə çatanda oturub məsləhətləşdik, dedik ki, gəlin anonim proklamasiya şəklində bir bəyanat hazırlayaq. Belə düşünürdüm ki, bəyanat hazırlayıb ümumi bir imza ilə Quma göndərək çap olunsun və xalq məsələdən xəbərdar olsun. Məsləhətləşib bir bəyanat hazırladıq, eyibli və nöqsanlı yerlərini düzəltdik. Bəyanatın çap olunması və çoxaldılması 1-2 gün çəkdi. Bu zaman imamın bəyanatı bizə çatdı. Bilirsinizmi haraya? Cirofta. Yəni hadisədən 4-5 gün keçməmiş imam işin içində idi və bəyanatı Cirofta qədər gəlmişdi. Bütün mübarizə dövründə belə idi. Hər zaman səhnədə olmaq, gecikməmək böyük məsələdir. İnqilabdan sonra da belə olub. İmam inqilabdan sonra da bu xalqın bütün taleyüklü hadisələrində, rəhbərliyinə ehtiyac duyulan hər bir problemdə səhnədədir və yaxından iştirak edir.

Mücadilə surəsinin təfsir dərslərindən: 1982.

## Ali Müdafiə Şurasında imamın sözünü xatırlamaq

Mənim üçün acı xatirələrdən olan, amma üstündən uzun müddət ötdüyündən acılıqdan çıxmış bir hadisə var: Ali Müdafiə Şurasının iclasında komandirlər yekdil rəyə gəldilər ki, bizim 20, yaxud 25 gündən artıq silah-sursat tədarükümüz yoxdur. Bu bizi çox nigaran etdi. Komandirlərin biri dedi ki, əgər vuruşsaq, silahlarımız 20-25 gün, qızğın döyüş getməsə, yalnız cavab atəşləri açılsa isə üç aydan çox çatmayacaq. Bu söz şuranın iclasında deyildi. Biz o zaman bəzi qüvvələr tərəfindən təklif olunan sülh məsələsini müzakirə edirdik. Bəni-Sədr dedi ki, yaxşı olar müzakirələrdən öncə filan komandirdən soruşaq, görək silahlarımızın vəziyyəti necədir. Üzünü ona tutdu, o da çox soyuqqanlılıqla bu sözü dedi. Məncə əvvəlcə toplaşıb bu haqda danışmış və tam razılığa gəlmişdilər. Belə çıxdı ki, biz sülh etməsək, üç aydan sonra əllərimizi qaldırıb təslim olmalıyıq. Çox kədərli iclas idi, ovqatımız çox təlx oldu. Bir qədər etiraz etdik, sonra birdən yadıma bir xatirə düşdü. Müharibənin ilk günlərində bir dəfə imamın yanına getmişdim. İmam soruşdu ki, bizim neçə əl silahımızın olduğunu araşdırıb mənə deyin. Mən tez bütün komandir qardaşları toplayıb dedim ki, imam silahlarımızın sayını bilmək istəyir. Onlar da dedilər ki, baş üstə. Sonra tez hər yerdən - Quru Qoşunlardan, Hərbi Hava Qüvvələrindən, polisdən və digər yerlərdən öyrənib mənə bir rəqəm dedilər. Bu rəqəmi sizə desəm, təəccübdən gülərsiniz. Mən də inandım, elə bildim böyük rəqəmdir. Onda müharibənin ilk günləri idi. Biz silah-sursat, qoşun, müharibə və bu kimi məsələləri təcrübə etməmişdik. Bu rəqəm mənə olduqca böyük göründü; məsələn, bir neçə min silah. Mən imamın yanına gedib dedim ki, silahların siyahısı budur: Quru Qoşunlarda bu qədər, Hərbi Hava Qüvvələrində bu qədər və sair. İmama oxudum. İmam bir qədər fikirləşdi, baxdı və çox inamla dedi ki, bunlardan olduqca artıqdır. Mən təəccüb etdim ki, o necə arxayınlıqla bu sözü deyə bilər. Sonra dedi ki, bu ölkəyə alınan silah-sursat Rusiya

kimi bir imperiya ilə müharibə məqsədi ilə tədarük görülmüşdür. Bizim bunlardan olduqca çox silahımız var; gedin axtarıb tapın. Mən Ali Müdafiə Şurasının həmin iclasında bu sözü xatırladım, ürəyim bir az təskinlik tapdı. Yadımda deyil ki, bu xatirəni danışdım, yoxsa danışmadın. Dedim ki, sizlər çox zaman belə rəqəmlər demisiniz. Xeyr! Belə deyil. Bizim diqqətimiz yerindədir. Bununla iclası bitirdik.

Məcburi müharibənin ildönümündə "İslam Respublikası" və "İnqilab sözü" qəzetlərinə müsahibədən: 1983.

**Vəzifəni yerinə yetirmək qələbəsi**

Parisdə imamın yanında olan əziz qardaşların biri dünən mənə bir hadisə danışdı. Orada jurnalistlər imamdan soruşublar ki, sizin qələbənizə nə qədər ümidiniz var? İmam jurnalistlərə cavab verib ki, biz indi də qalibik. İmam bunu elə bir halda deyib ki, şah ABŞ komandoslarının xalqı qətliam edəcəyinə hələ də ümidvar idi. Bu, ehtimal olunurdu və mümkün idi. Belə bir şəraitdə imam deyir ki, biz qalibik. Nə üçün qalibik? Çünki vəzifəsini yerinə yetirməyə müvəffəq olan şəxs qalibdir.

İmam Rzanın (ə) şəhadəti münasibəti ilə Məşhəd əhalisi qarşısında çıxışdan: 1984.

## İmamın təkidi: vəzifəni yerinə yetirmək

Biz əziz imamımızdan, din və əxlaq müəllimimizdən dəfələrlə bu cümləni eşitdik. İmam dəfələrlə dedi ki, biz nəticə üçün çalışmırıq, vəzifəmizi yerinə yetirmək üçün çalışırıq və əgər ixlasla çalışsaq, Allah-Taala mütləq bizi nəticəyə də qovuşduracaq. Necə ki, bu xalqın ən böyük sınağını, yəni 2500 illik zalım şah üsul-idarəsini devirmək işini bu əziz imamın özü və onun hizbullahçı ümmətdən ibarət olan böyük ordusu boş əllə nəticəyə çatdırdı. Mən bir neçə ay öncə imamdan soruşdum ki, siz nə zaman İslam hakimiyyəti qurmaq fikrinə düşdünüz. Çünki imamın İslam hakimiyyəti dərsləri 1968-ci ildə Nəcəfdə deyildi və kasetləri buraya gəldi. Biz ondan öncə imamın sözlərində İslam hakimiyyəti haqda eşitməmişdik. Mən soruşdum ki, bu nə vaxtdan başlandı? O, cavab verdi ki, dəqiq yadımda deyil. Sonra əlavə etdi ki, mən hansı işin vəzifəm olduğunu hiss etdimsə, onu yerinə yetirdim, qalanını Allah-Taalanın Özü düzüb-qoşdu; yəni "kim Allah üçün çalışsa, Allah da onun üçün çalışar". İnsan üzərinə məsuliyyət düşdüyünü hiss edib çalışanda İslam hakimiyyəti, İslam quruluşu və belə bir inqilabla nəticələnən sistematik işlər əmələ gəlir.

Mühafizəçilər korpusunda çıxışdan: 1985.

### İmamın sevinci

Mən 1980-ci ildə əksərən müharibə zonalarında olur və Tehrana gələndə qəbanın altından hərbi forma geyinirdim. Hər dəfə gələndə də imamın yanına gedib məruzə edirdim. İmamın yanına ilk dəfə bu formada gedəndə çox mütəəssir oldu, dedi ki, bir zaman hərbi geyim mürüvvətə zidd sayılırdı, bir ruhani hərbi forma geyinsəydi, arxasında namaz qılmaq olmazdı. O, bu formanın mürüvvətə zidd olduğuna dair fiqh kitablarından misal vurub əlavə etdi ki, bu gün isə İslam ruhaniləri bu geyimlə fəxr edirlər. O çox mütəəssir oldu, razılığını və sevincini bildirdi. Elə orduların geyimini geyinmək həqiqətən mürüvvətin və hətta ədalətin ziddinə idi. Amma İmam Mehdi (ə) ordusunun geyimi hamıdan çox bizə uyğundur. Bizim bu iddiamız var və dövrün imamının əsgəri olmağa çalışırıq.

Qum Elm Hövzəsinin cəbhəyə ezam olunan 1200 tələbəsi qarşısında çıxışdan: 1987.

## İmamın cihad hökmü verməməsi

Ötən il korpus imamın cihad hökmü verməsini təklif etdi. Ali Şuraya yazılı bir müraciət ünvanlayıb imamın cihad hökmü verməsini, 16 və ya 18 yaşdan 40 yaşa qədər hamının müharibəyə gedib təlim görməsini və 1500 batalyonun yaradılmasını istədilər. Şurada bu fikrə qarşı çıxan yeganə şəxs mən idim. Buna görə dəlillərim vardı. Əziz qardaşımız cənab Haşimi bu fikirlə tam müvafiq idi. Bizim fikirlərimiz bir-birinə çox yaxın olsa da, bəzən aramızda belə fikir ayrılığı da yaranır. O dedi ki, imam və rəhbər elə bunun üçündür, qoy möcüzəsini göstərsin. Mən qorxurdum ki, cihad hökmü veriləndən sonra xalq gələr, amma biz yerbəyer edə bilmərik və hökm qüvvədən düşər. Mən də dedim ki, biz bu şurada imamın yerinə qərar veririk; biz deyirik hökm verməsin, siz deyirsiniz versin. İmamın özü sağdır, gedək görək özü necə məsləhət bilir. Hamı razılaşdı. Qərara alındı ki, cənab Haşimi ilə mən imamın yanına gedək. İmam dedi ki, mən cihad hökmü verməyəcəyəm, siz də heç vaxt bu fikrə düşməyin. O, ümumi cihad hökmünü olduqca mühüm sayırdı. Dedi ki, bu, məsləhət deyil, sizin özünüz bir iş görün. Bundan sonra mən cənab Haşimi və digər qardaşlarla bir-bir rayonları gəzməyə başladıq. Allaha şükür ki, çox yaxşı oldu. Xalqın iştirakını dəyərləndirmək istəsək, həqiqətən çox yaxşı deyə bilərik.

"Əl-Məhdi" diviziyasının komandirləri ilə sual-cavab məclisindəki söhbətlərdən: 1988.

**Xalqda ümid oyatmaq**

Bu müqəddəs və ruhani məkanda tağut rejiminin zülmkar hökmranlığı o qədər güclü idi ki, Əli ibn Musa Rzanın (ə) qəbri kənarında da kimsə məsum imamların amalından və İmam Rzanın (ə) məqsədlərindən danışmağa cürət etmirdi. Gövhərşah məscidi, bu şərafətli həyətlər, bu müqəddəs məqbərə İslamın və Əli ibn Musa Rzanın (ə) düşmənlərinin mərkəzinə çevrilmişdi. 1978-ci ilin tarixi Aşura gecəsində bizim xalqımız yürüşdən, tağuta və onun ardıcıllarına nifrət bildirəndən sonra bu böyük İnqilab həyətinə toplaşdı. Mən o gecə izdiham önündə Əli ibn Musaya (ə) müraciət edib ondan üzr istədim. Dedim mən bu şəhərin bir sakini kimi sizdən üzr istəyirəm ki, bizim dövrümüzdə və müqəddəs məqbərən önündə sənin düşmənlərin minbərlərə çıxıb İslama, vilayətə və peyğəmbərlərin məqsədlərinə zidd fikirlər söyləmiş, insanları azdırmış və məyus etmişlər. Repressiya dövründə şərait elə idi ki, insanlarda heç bir ümid qalmamışdı. Mübarizə aparanlar Allahın vədinin doğruluğuna qəti ümid bəsləsələr də, zahiri vəziyyət əsaslı bir dəyişiklik üçün ümidverici deyildi. Bu xalqın qəlbində ümid oyadan, ümid çırağı yandıran ilk, ən yaxşı və ən böyük şəxs bizim əziz və böyük imamımız idi. O, təzyiq və repressiyanın sərt dövründə xalqı işıqlı gələcəyə çağırırdı. Mən əziz imamımızın dilindən çıxan sözləri unutmaram. Rejim cəlladları Feyziyyə mədrəsəsinə hücum edib vəhşiliklərə əl atanda bütün qəlblərdə qorxu vardı, ümid yox idi. Belə bir zamanda əziz imamımızın bir neçə dəqiqəlik qısa söhbəti ilə ürəklərdə ümid işığı yandı.

İnqilabın tarixində ümidin rolu inkaredilməzdir. Güclü təzyiq və repressiyalara baxmayaraq, Quran təlimləri ilə tanış, Allahın mömin, məzlum, mübariz və dözümlü insanlara vədindən xəbərdar olanlar ürəkləri ümidlə doldurmağa, hərəkəti davam etdirməyə çalışdılar. Bu hərəkatın rəhbəri olan böyük və əziz imamımız öz müraciətləri, sözləri və hikmətli təlimləri ilə daim xalqda Allahın lütfünə ümidi

möhkəmlədirdi. Belə güclü repressiya dövründə bu hərəkət 15 il davam etdi.

Məşhəd əhalisinin toplantısında çıxışdan: 1989.

## Reallığa uyğun qərarlar

Mənim yadımdadır, imam İranda şahlığı devirmək məsələsini ortaya qoyanda bəzi yaxın adamlar, böyüklər deyirdilər ki, məgər belə bir şey mümkündür?! Onların bəziləri rəhmətə getmişlər, adlarını çəksəm, təəccüb edərsiniz. Bu, böyük şəxsiyyətlər üçün təsəvvürolunası deyildi. Mərhum cənab Taliqani mənim özümə dedi ki, imam bəzi sözləri deyəndə adam təəccüb edir, sanki onun vəziyyətdən xəbərdar olmadığını düşünür, ancaq sonra dediklərinin həyata keçdiyini görür. O, demək istəmirdi ki, imamın öncəgörmələri yaxşıdır. Yox, demək istəyirdi ki, qərarları relallığa uyğun və düzgündür.

İranın Şimali Koreyadakı səfirliyinin əməkdaşları ilə görüşdə çıxışdan: 1989.

**Bütün mərhələlərdə imandan doğan ümid**

İnqilabın qələbəsindən öncə, hətta xalqın mübarizədə iştirakının artdığı son illərdə, repressiyanın şiddətli çağlarında imam həmişə gələcəyə ümidvar idi. Bu ümid imandan doğur. Qeyd etdiyim bu xüsusiyyətlərin hamısı güclü və dərin bir imandan qaynaqlanır. Onların biri ümiddir. Mənim yadımdan çıxmır, Feyziyyə mədrəsəsində faciəli hadisələr baş verəndə, tələbələri vurub öldürəndə biz orada deyildik. Dedik gedək görək nə baş verir. Feyziyyə mədrəsəsindən qaçmağı bacarmış bir neçə nəfər önümüzü kəsib dedilər ki, olmaz, gərək qayıdasınız, orada qırğındır, hamını öldürürlər. Onlar bizim dostlarımız idilər. Biz yarıyoldan qayıtmağa məcbur olduq, daha oraya getmədik. Dedik gedək imamın evinə. Həmin gün küçə və xiyabanların vəziyyəti dəhşətli idi. O günün xatirəsi mənim yaddaşımdan heç zaman silinməz. Burada xırdalıqlarını söyləmək istəmirəm. Nəhayət, gəlib imamın evinə çatdıq. Axşama yaxın idi və o, namaza hazırlaşırdı. İmam evinin həyətində camaat namazı qıldı. Tələbələrin bir qismi orada idilər. Onlar qapını bağlamaq istədilər, dedilər ki, muzdurlar evə hücum edə bilərlər. İmam dedi ki, yox, qapı açıq qalmalıdır. Hamı nigaran idi. Xatırlayıram ki, mənim özüm çox nigaran idim. O isə tam aram şəkildə, heyrətamiz bir arxayınlıqla şam və işa namazlarını qıldı, sonra isə evin bir otağına getdi. Biz də oraya yollandıq. Cəlladların tələbələri öldürmək məqsədi ilə belə hücum çəkməsi yeni bir şey idi. Görünür rejim bütün hövzə tələbələrini məhv etmək qərarına gəlmişdi. O gecə bütün tanınmış evlərə və məşhur mədrəsələrə hücum etmələri, tələbələri öldürmələri mümkün idi və gözlənilirdi. Orada hamı nigaran, narahat və qorxu içində idi. İmam 10-15 və ya 20 dəqiqə söhbət edəndən sonra isə bütün təşvişlər aradan qalxdı və arxayınlıq yarandı. Mənim xatırladığım, indi də qulağımda olan sözlərdən biri bu idi: "Bunlar gedəcəklər, siz isə qalacaqsınız. Möhkəm dayanın, bunlar batildirlər".

15 Xordad (4 İyun) qiyamının anım mərasiminin açılışında çıxışdan: 1989.

## İmam üçün ən böyük mükafat

İmamın bəyan etdiyi böyük amallar qlobal hegemonizmə qarşı mübarizədən, "nə şərqçi, nə qərbçi" xəttində qətiyyəti qorumaqdan, xalqın həqiqi və hərtərəfli müstəqilliyi, tam mənada özünü təmin etməsi üzərində çoxlu təkiddən, dini prinsipləri, şəriəti və İslam fiqhini qurmaq üçün sonsuz səydən, birlik yaratmaqdan, dünyanın müsəlman və məzlum xalqlarına qayğıdan, İslama və müsəlman xalqlara ucalıq bəxş etməkdən, qlobal güclər önündə qorxmamaqdan, İslam cəmiyyətində ədaləti bərqərar etməkdən, yoxsulları, məhrumları və cəmiyyətin aşağı təbəqələrini sonsuz həddə və daim himayə etməkdən, onlara qayğı göstərməkdən ibarət idi. Bizim hamımız şahid olduq ki, imam bu istiqamətdə hərəkətini israrla və gecikmədən davam etdirdi. Biz də onun yolunu, saleh əməllərini və müntəzəm hərəkətini davam etdirməliyik.

Əziz imamın ilahi rəhmətə qovuşduğu gecə həyəcan və heyrət içində Qurana müraciət etdim. Kəhf surəsinin bu şərafətli ayəsi gəldi: "İman gətirib yaxşı iş görənləri ən gözəl mükafat gözləyir. Biz ona asan bir şey əmr edəcəyik!"[1] Gördüm ki, bu ayənin həqiqətən kamil nümunələrindən biri imamdır. İman və saleh əməl onun üçün ən yaxşı mükafatdır.

Ondan dəfələrlə eşitmisiniz ki, hamı məsuliyyət daşıyır və məsuliyyət bir yerdə mərkəzləşmir. Bütün xalqın, ölkəni idarə edənlərin, cəmiyyətin hidayət işini üzərinə götürənlərin, xüsusən də xalqın düşüncə və beyin məsələlərini idarə edənlərin üzərinə böyük vəzifələr düşür və bizim hamımız təxminən belələrindənik.

Baş nazirin və Nazirlər kabinetinin beyət mərasimində çıxışdan: 1989.

---

[1] Kəhf/88.

## İmamın iksir olması

İmamın vəziyyətinin ağırlaşdığı gün mən Konstitusiyaya düzəliş şurasının üzvlərini çağırıb dedim ki, imamın halı yaxşı deyil, düzəlişləri bir qədər sürətləndirək, işin bitməsini xəstəxanada imama xəbər verək və o sevinsin. Mümkün hadisəyə görə çox qorxurdum. Səsim titrədi və sözümü bitirə bilmədim. Bəlkə ondan bir neçə saat sonra xəbər çatdı ki, bu ilahi əmanəti və dəyərli gövhəri əldən vermişik.

Bütün Peyğəmbər və övliyalar getdilər - başqa çarə yoxdur. Bizim qalmağımız məsləhət olubsa, çox acı olan bu hadisəyə özümüzdə dözüm də yaratmalıyıq. Allah Peyğəmbərinə (s) buyurdu ki, sən də öləcəksən, onlar da[1]. Belə acı hadisələrdən qaçış yoxdur. Amma sevinirik ki, onun irsi bizdədir. Bu irs İslam Respublikası və onun bu respublikada yaratdığı, daha doğrusu, bu respublikanı qurduğu dəyərlərdir. Biz mis idik, o bizi qızıl etdi. O, iksir idi. Biz adi həyat yaşayırdıq, o, potensialı aktuala çevirdi, hərəkətə gətirdi və insan yetişdirdi.

Sizin cəbhədəki dəyərli qələbələrinizdən biri münasibəti ilə müraciətində buyurdu ki, ən böyük zəfər belə insanlar və gənclər yetişdirməkdən ibarətdir. Əslində bu ən böyük zəfərin sahibi onun özü idi. Bu insanları yetişdirən, bu şəraiti yaradan, bu yolu açan, İslam dəyərlərini təcriddən çıxarıb yenidən dirçəldən o idi. Onun irsi bu dəyərlər və İslam Respublikasıdır. Bizim hər birimiz hansı vəzifədə olsaq, İslam dəyərlərini və İslam Respublikası quruluşunu qorumaqla və yaşatmaqla o əziz insana böyük sevgimizi bildirməliyik.

İslam İnqilabının Mühafizəçiləri Korpusunun komandirlərinin beyət mərasimində çıxışdan: 1989.

---

[1] Zümər/30.

## Son ana qədər zikr və namaz

O, həyatının son anlarına qədər zikri, namazı və duanı əldən vermədi. İmamın əziz övladı Hacı Əhməd ağa deyirdi ki, o, həyatının son günündə günortadan qabaq çarpayı üzərində daim namaz qılırdı. Bir müddət keçəndən sonra soruşdu ki, zöhr olubmu? Dedim ki, bəli. O da nafilələri ilə birgə zöhr və əsr namazlarını qılmağa başladı, namazı qurtarandan sonra zikr söyləməyə başladı. O, huşunu itirdiyi anlara qədər daim deyirdi: "Subhənallahi vəlhəmdu lillahi və la ilahə illəllahu vallahu əkbər". Bu bizə dərsdir. Biz rəhbərimizi sevdiyimizə görə onun işlərinə və hisslərinə baxmalı, dərs götürməliyik.

İslam inqilabı komitələrinin komandirlərinin beyət mərasimində çıxışdan: 1989.

**İmamın səbri, mətanəti və dözümü**

Onun xüsusiyyətləri az adamda tapılır. Əgər bu xüsusiyyətlərin biri bir nəfərdə olsa, böyük adam sayılar, o isə bütün üstün xüsusiyyətləri özündə cəm etmişdi. İmam çox ağıllı, uzaqgörən, hikmətli, dəqiq, səbirli, mətanətli və gələcəyi düşünən insan idi. Bu xüsusiyyətlərin hər biri adamı zirvəyə çatdıra və hamının hörmətini qazana bilər. İmamın mətanəti, səbri və dözümlülüyü o qədər güclü idi ki, bir məclisdə yüz nəfər onun qəbul etmədiyi sözü desəydi də, lazım bilmədikcə danışmaz, sükut edərdi. Halbuki adi adamların yanında onların fikrinin əksinə bir söz deyilsə, qəlblərində tufan qopar və tez cavab vermək istəyərlər.

Sizin hamınız gördünüz ki, imam öz vəsiyyətnaməsində əvvəlcə sükut etdiyi bəzi məsələlərə işarə vurmuşdu. Mən Bəni-Sədrin vaxtında imamın yanına getdim. İmam deyirdi ki, onun mənim adımdan dediyi sözlərin hamısı həqiqətə ziddir. İmam deyilən hər sözə qarşı tez reaksiya vermir, təhrik olmur və cavab verməyə tələsmirdi. Bu mətanət, səbir, özünəhakimlik və dözümlülük kimdə olsa, onu böyük insana çevirər. Eyni zamanda imamda əsas amillər olan mənəviyyat, Allahla mənəvi əlaqə, Onun razılığı üçün çalışmaq, təqva və vəzifəni yerinə yetirmək hissi olmasaydı, nə inqilab qalib gələrdi, nə xalq ona bu qədər eşq bəsləyərdi, nə dünyada bu fırtınanı yarada bilərdi, nə də düşmənlərin təhdidi qarşısında dağ kimi dayanmağa qadir olardı.

İslam inqilabı komitələrinin komandirlərinin beyət mərasimində çıxışdan: 1989.

## Ən çətin iş

Ən çətin iş xalqın canı kimi sevdiyi əziz imamın yoxluğu haqda danışmaqdır. Həqiqətən bizim hamımız yetim qaldıq. O, 10 il öncə ürək xəstəliyindən yatağa düşəndə çoxları bu gün şəhid olmuş və ilahi rəhmətə qovuşmuş bəzi dostlarla soyuq və qarlı havada özümüzü Quma çatdırdıq, inqilabın borclu olduğu bu əziz insanı Tehrana gətirib ürək xəstəxanasına yerləşdirdik. Necə ağır günlər keçdi və o zaman biz necə vəsfəgəlməz nigaranlıqlar yaşadıq!

O günlərdən imamın vəfatına qədər daim bu acı hadisədən nigaran idik. Allah-Taalaya deyirdik ki, bizim mömin və ixlaslı ümmətimizin Sənin dərgahından səmimi istəyi bu döyünən qəlbin salamatlığı və yaşamasıdır; Öz böyüklüyünlə bizim ümmətimizin duasını qəbul et! Bu böyük və əziz insanın yoxluğunu hər dəfə təsəvvür edəndə dünya həqiqətən mənasız və qaranlıq görünürdü. Bu gün biz belə böyük və ağır bir müsibət qarşısında qalmışıq. Həqiqətən ağrılı və inanılmaz hadisədir, başqa heç bir müsibətlə müqayisəolunası deyil.

İmamın şəxsiyyəti hətta düşmənləri üçün də parladı, on il zəhərli və çirkin təbliğatla bu Allah övliyasının işıqlı simasını ləkələməyə, dünyanın müsəlman və məzlumlarının qəlbində parlayan ümid işığını söndürməyə çalışdılar. Bu gün isə onların hamısının danışıq tonu dəyişib. Onların imam haqdakı tərifləri bu böyük şəxsiyyətin əzəmətinə dair etirafdır.

İslam inqilabın komitələrinin komandirlərinin beyət mərasimində çıxışdan: 1989.

**İmamın xalqın fədakarlığından həyəcana gəlməsi**

Xalqın və şəhid ailələrinin mənəviyyatı, cəbhələrdə döyüşənlərin ixlası imamı həyəcana gətirirdi. Mən bir neçə belə yerdə imamın ağlamasını görmüşəm. Hər dəfə imamla xalqın fədakarlığından danışanda həyəcanlanır və mütəəssir olurdu. Məsələn, imam xəstəxanada televiziyadan Tehranın cümə namazının qılındığı yerdə uşaqların cəbhəyə hədiyyə etdiyi daxılların açılmasını və yaranan pul təpəsini görəndə çox təsirləndi, mənə dedi ki, gördün bu uşaqlar nə etdilər?! Həmin anda imamın gözləri yaşla doldu və o ağladı.

İslam inqilabı komitələrinin komandirlərinin beyət mərasimində çıxışdan: 1989.

**İslam hərəkatlarının rəhbərlərinin imamın vəfatından kədərlənmələri**

Mən imamın aramızda olduğuna görə inqilabın qələbəsindən bugünədək ötən on ili müstəsna bir dövr bilirəm. Bu dövrdə inqilab, xalq, məqsədlər və bizə qarşı düşmənliklər də müstəsna olmuşdur. Lakin bunların hamısından müstəsna olan imamın özü idi. Təəssüf ki, bu nemətdən məhrum olduq. O, çox böyük bir nemət idi, təəssüf ki, əlimizdən çıxdı. Həm də İslam dünyası onun rəhbərliyinə, idarəçiliyinə, məzlum və məhrum insanlarda və dünyanın təhqir olunmuş xalqlarında yaratdığı şəxsiyyət hissinə ehtiyaclı idi.

Bu gün dünyanın məşhur və böyük İslam hərəkatlarının rəhbərlərindən olan bir qrup öz kədərlərini ifadə etmək üçün mənimlə görüşdülər. Kaş onların sözləri eynilə yazılıb xalqımıza çatdırılaydı, xalqımız o zəngin və misilsiz nur mənbəyindən dünya müsəlmanlarına, məzlum, məhrum və təhqir edilmiş insanlara saçan işığın necə can, ruh və qüdrət verdiyini, hücum və ədavət seli önündə dayana bildiklərini görəydilər. Livanın, Fələstinin, Əfqanıstanın və digər ölkələrin İslam hərəkatlarının məşhur şəxsiyyətləri mənə deyirdilər ki, biz yetim qaldıq. Həqiqətən bizim hamımız yetim qalmış və böyük itki vermişik.

İmamın ordudakı nümayəndəsinin, Müdafiə nazirinin və silahlı qüvvələrin komandirlərinin beyət mərasimində çıxışdan: 1989.

## İmamın nəzərində fiqh və əxlaqın əhəmiyyəti

Bir gün bir qrup dəyərli ruhani ilə birgə imamın yanına getmişdik. Orada Qum hövzəsindən söhbət düşdü. Bizim hamımızın qəbul və hörmət etdiyimiz böyük ustadlardan və görkəmli alimlərdən biri imama dedi ki, siz Quma nəzarətin edin. İmam buyurdu ki, siz Qum hövzəsində yalnız iki amili qoruyub saxlasanız, xüsusi nəzarətə ehtiyac qalmaz və hər şey həllini tapar: biri fiqh, - zənnimcə dedi ki, ehtiyatlı olun fiqh məşəli sönməsin - ikincisi isə əxlaq və mənəviyyatdır. Biz mənən pak olsaq, İslama və İslam quruluşuna xidmət edə bilərik. Mənən pak olmasaq, xidmət edə bilməyəcəyik və əksinə çalışmamız da mümkündür.

Qum Elm Hövzəsinin minlərlə müəllim və tələbəsinin və dünyanın iyirmi ölkəsindən olan ruhanilərin beyət mərasimində çıxışdan: 1989.

**Mənəvi paklaşmanın təsiri**

Elm hövzələrinin tarixi, bizim böyük alimlərimizin və dəyərli sələflərimizin heyrətamiz sərgüzəştləri mənəvi paklığın böyük təsirinə dair çoxlu təcrübələrlə doludur. Bizə ən yaxın təcrübə bu gün dünyanın diqqətini özünə yönəltmiş bu böyük şəxsiyyətin həyatıdır.

İmam Qumda tanınmaz bir müəllim idi, hövzənin mərkəzində deyil, bir küçədə yerləşən Səlmasi məscidində dərs deyirdi. Onun evi də həmin küçənin sonunda idi. Yəni gündə iki dəfə dərs dediyi bu məscidə gəlib-getmək üçün xiyabanı görməyə ehtiyac qalmırdı və adətən həmişə evdən məscidə, məsciddən də evə gedirdi. O, zahirən təcrid halında idi, amma əslində gənc tələbə və ruhanilər üçün böyük müəllim, cəlbedici mərkəz, gözəl xüsusiyyətlərə malik bir alim sayılırdı.

Mənim fikrimcə, onun ixlası, mənəvi paklığı, öz qəlbi ilə qəlbləri dəyişən Allah arasında yaratdığı güclü mənəvi əlaqə onun zahiri təcrid halından çıxmasına və dünya miqyasında maddi dəyərlərin bünövrəsini dəyişdirmək üçün güclü amilə çevrilməsinə bais oldu.

Qum Elm Hövzəsinin minlərlə müəllim və tələbəsinin və dünyanın iyirmi ölkəsindən olan ruhanilərin beyət mərasimində çıxışdan: 1989.

**İmama sevindirici bir təklif**

İndi haqq imaməti və vilayəti əsasında yaranmış, cümə imamlarının həqiqətən mömin, təqvalı, sədaqətli, tamahsız, iddiasız, bunu dünyəvi bir vəzifə bilməyən mənəvi və ruhani insanların olduğu bir quruluşda cəmiyyətin mənəviyyatını və təhlükəsizliyini qorumaq üçün bu tribunanın təsirləri olduqca böyükdür. Bu tribuna olmasaydı, mən inqilabın və xalqın psixoloji vəziyyətinin necə olacağını təsəvvür edə bilmirəm. Bu, inqilabın faydalarından biri idi və imam buna əhəmiyyətli yanaşırdı.

Mən Tehranın cümə imamı təyin olunanda həzrət imamın yanına gedib cümə imamlarının seminarının keçirilməsini təklif etdim. O zaman cümə imamlarının sayı bu qədər deyildi. Mən dedim ki, indi ölkə boyu cümə imamı olan bu qədər möhtərəm din alimimiz var və bu, cəmiyyətin mənəvi idarəsi, ölkənin iman qalasını qorumaq üçün bir ümumrespublika şəbəkəsidir. Əgər razı olsanız, onları bir-birinə birləşdirib, cümə imamlarından ibarət bir şəbəkə yaradaq, insanları bir-birinə calayaq, sonra bu təşkilatla İslam dünyasının cümə imamları arasında konfranslar keçirək. İmamın çox xoşuna gəldi və müsbət qarşıladı. Biz Quma gedib Feyziyyə mədrəsəsinin kitabxanasında ilk seminarı keçirdik, bu işin əsası qoyuldu və Allaha şükür ki, bu günədək davam edir.

Cümə imamlarının təşkilatlanması və ona ölkənin və xalqın iman və mənəviyyat qalası kimi baxmaq olduqca əhəmiyyətlidir. Bu əsla diqqətdən kənarda qalmamalıdır. Lakin bu şəbəkənin həqiqətən tam bir qala kimi çalışması üçün onun toplantıları vaxtlı-vaxtında və daim keçirilməlidir.

Ölkə üzrə cümə imamlarının toplantısında çıxışından: 1989.

## İmamın vəsiyyətnaməsinin xülasəsi: Allaha arxalanmaq

Birliyi qorumağı prinsip seçək. Üzərimizə şəriət vəzifəsinin düşdüyünü hiss etsək də, həmin vəzifəyə əməl etməyin bir qədər təfriqə yaratmasının və birliyi pozmasının mümkün olduğunu görsək, heç şübhəsiz, həmin vəzifəni yerinə yetirmək haram və birliyi qorumaq vacib olacaq.

İmamın vəfatından sonra ölkənin yüksək vəzifələrində çalışan yaxşı və dəyərli məmurlar xoşbəxtlikdən sayıq və qüdrətlə hərəkət etdilər. Düşmənin ümid bəslədiyi bütün fərd və mərkəzlər onun təxribatına qaşrı qüdrət, sədaqət və səmimiyyətlə tədbir gördülər. Həzrət imamın şərafətli evindən, yaxınlarından, əziz və dəyərli övladından tutmuş dövlət məmurlarına, din xadimlərinə və cəmiyyətimizin ən görkəmli şəxsiyyətlərinə qədər hamı çox yaxşı, qətiyyətli, ayıq, ixlas və imanla hərəkət edib düşməni həqiqətən heyrətə saldılar.

Ölkənin müxtəlif sahələrinin məsul şəxsləri də belə etdilər. Adi xalqın səmimiyyət və sədaqətində isə həqiqətən heç vaxt şübhə olmayıb və yoxdur. Xalq bu dönəmdə çox yaxşı hərəkət etdi. Düşmənin hiylə və təxribatına qarşı bu sayıqlıq və diqqət həmişə qorunmalıdır. Düşmən münaqişə yaratmaq istəyəndə öz niyyətini açıq söyləmir, elə sözlər deyir ki, bəzi adamlar həqiqətən məntiqli olduğunu və özlərinin etiraz etməli olduqlarını düşünürlər. Belə yerdə ayıqlıq və bu təxribatlara qarşı mübarizə lazımdır.

Mən imamın 1986-cı ildəki xəstəlik çağını unutmuram. Onun ürəyində narahatlıq yaranmışdı və təxminən 10-15 gün xəstə yatdı. Mən o zaman Tehranda deyildim. İmamın möhtərəm oğlu Hacı Əhməd ağa mənə zəng vurub dedi ki, tez buraya gəlin. Bildim ki, imama nəsə olub. Tez hərəkət etdim və bir neçə saatdan sonra özümü Tehrana çatdırdım. Ölkə məmurlarından imamın yanına gələn ilk şəxs mən idim. Bəlkə də hadisədən təxminən 10 saat sonra oraya çatdım. O zaman əziz

qardaşımız cənab Haşimi cəbhədə idi və başqa heç kim bundan xəbər tutmadı.

Ağır və iztirablı günlər keçirdik. İmamın yanına getdim. Onun çarpayısına yaxınlaşanda özümü saxlaya bilməyib ağladım. O, mehriban nəzərlə baxdı, sonra bir neçə cümlə dedi. Qısa olduğundan onları yadda saxlayıb bayıra çıxandan sonra yazdım. Əziz qardaşımız cənab Sanei də otaqda idi. Onun köməyi ilə imamın cümlələrini olduğu kimi yazdım.

Prinsip etibarilə imam belə həssas anda bizə ən mühüm sözünü deməli idi. O dedi: "Güclü olun, zəiflik hiss etməyin, Allaha arxalanın, "kafirlərə qarşı sərt, öz aralarında isə mehriban"[1] olanlardan olun. Əgər bir olsanız, heç kəs sizə zərər yetirə bilməz". Məncə imamın otuz səhifəlik vəsiyyətnaməsi bu bir neçə cümlədə xülasə oluna bilər.

O, həqiqətən həkim idi. İnsan hiss edirdi ki, dünyanın bütün həqiqətləri ona aydındır. O, dəlil və əsaslandırma ilə yox, ruhani nuru, ilahi baxışı və hikməti ilə bəzi şeyləri aydın şəkildə görürdü.

---

[1] Fəth/29.

## Allaha sonsuz təvəkkül və nikbinlik

İnqilabın ilk günlərindən müxtəlif vəzifələrdə çalışdığım uzun dövrdə dəfələrlə İmam Əlinin (ə) bu cümləsini xatırlamışam. O buyurur ki, döyüşlərdə işimiz çətinə düşəndə Allahın rəsuluna sığınırdıq. Mən bu cümləni yada salanda bizim vəziyyətimizin də belə olduğunu görürdüm.

Dəfələrlə müxtəlif hadisələrdə yüksək vəzifəli qardaşlarla oturub fikir mübadiləsi aparır və nəticəyə çatmayanda imamın yanına gedirdik. O özünün düzgün fikri, güclü iradəsi, Allaha sonsuz təvəkkülü və imanı ilə problemi həll edirdi. Allah şahiddir ki, mən ömrümdə kiminsə bu həddə Allaha arxalandığını və nikbin olduğunu nə görmüşəm, nə də eşitmişəm. O, problemi həll edir, düyünü açırdı. Bu gün ailənin bu atası, həmin möhkəm dayaq və problemlərdə müraciət etdiyimiz şəxs bizim aramızda deyil.

Höccətül-İslam vəl-müslimin Haşimi Rəfsəncaninin prezidentliyinin təsdiqi (Tənfiz) mərasimində çıxışdan: 1989.

**Hegemon güclərin təzyiqlərinin səbəbi**

Mən Pakistana səfərə hazırlaşanda İmam Xomeyni buyurdu: "Pakistanın din alimlərinə deyin ki, ABŞ-ın, Qərbin, Şərqin, mürtəce dövlətlərin və digərlərinin bizə qarşı təzyiqləri bizim iranlı olduğumuza görə deyil, İslama görədir. Dünya bizim İslam məsələsində ciddi olmadığımızı, hegemon dünya bizim İslam üzərindən bazarlıq etməyə razı olduğumuzu, buna çox əhəmiyyət vermədiyimizi duyanda bu təzyiqlər də bitəcək". Mən həzrət imamın sözünü Pakistanın bütün yerlərindən gəlmiş müsəlman din alimlərinə olduğu kimi çatdırdım. Biz aydın hiss edirik ki, təzyiqlər İslama görədir.

Vəzifəli şəxslər və xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdə çıxışdan: 1989.

**Haqq və batil meyarı**

Böyük İmam bir dəfə buyurdu ki, düşmən tərifləyəndə, düşmənlik etməyəndə adam özündən şübhələnir, pisləyib təzyiq göstərəndə isə sevinir və yolunun düzgün olduğuna əmin olur. Düşmənin indiki kimi ən sərt təzyiqlər göstərməsi yolun düzgünlüyünə görədir. Bu hökumət haqq hökumətidir, yolu düzgün və xalqın xeyrinədir. Haqq və batil meyarı budur.

İmam buna görə bütün on il boyu xalqın hökuməti, dövlət məmurlarını, icraçı və məhkəmə orqanlarının başçılarını müdafiə etməsini təkidlə tapşırırdı. Bu o demək deyildi ki, o zaman icraçı və ya qanunverici orqanın, yaxud dövlət məmurlarının heç bir səhvi yoxdur. Xeyr! Heç bir insan səhvsiz deyil. Bunun mənası odur ki, yol və xətt düzgün olanda, hökumət düzgün istiqamətdə hərəkət edəndə düşmən təzyiq göstərir. Bu zaman xalq bu böyük karvanı irəliyə aparan, idarə və himayə edən şəxsləri müdafiə etməyə, dəstəkləməyə borcludur.

Yoxsul və məhrumlara dəstək fondlarının rəhbərləri və əməkdaşları ilə görüşdə çıxışdan: 1989.

## Allahdan ötrü ayağa qalxmaq

Bu ayə bütün həyatı boyu mərhum və əziz imamımızın diqqət mərkəzində idi: "(Ey Peyğəmbər!) De: "Mən sizə ancaq bir öyüd verəcəyəm. Allahdan ötrü iki-iki, bir-bir ayağa qalxın (qiyam edin)"[1]. Mən illər öncə onun Yəzddə mərhum Vəzirinin xatirə dəftərindəki yazısını ziyarət etdim. O mərhum məni evinə apardı, bir sandıqçaya qoyub təxminən evinin bir küncündə gizlətdiyi bu yazını çıxardı və imamın qırxıncı illərdə yazdığı yazısını mənə göstərdi. Onun yazısında əsas mövzu Allahdan ötrü ayağa qalxmaq idi. Onun dərin beyni və hikmətli baxışı Rza xan repressiyasının yenicə bitdiyi o dövrdə "Allahdan ötrü ayağa qalxmaq" ayəsini özünün və digərlərinin görməli olduğu və məsuliyyət hiss etdiyi işlərə tətbiq edirdi.

Bir-iki səhifə yazmışdı. Bu yazı bədahətən gələn bir fikir deyildi. Bəlli olur ki, həyatının bütün mərhələlərində onun düşüncəsində "Allahdan ötrü iki-iki, bir-bir ayağa qalxın" fikri olmuşdur. Allaha şükür ki, imamımızın ümumi həyatından heç bir şey İran xalqına sirr deyil. Onun hərəkətinin, sözünün və sükutunun Allahdan ötrü olduğunu, gördüyü hər bir işin Allahdan ötrü ayağa qalxmaq məqsədi daşıdığını hamı gördü. Yalnız bu amil onun vasitəsi ilə bir möcüzənin baş verməsinə səbəb oldu. Baş verən bu hadisə və İslam inqilabının ardınca yaranan böyük qlobal dəyişiklik həqiqətən bir möcüzədir. Bu möcüzə imam tərəfindən həyata keçdi. İmam da "Allahdan ötrü ayağa qalxın" sözünə arxalanaraq bu işi bacardı.

İran İslam İnqilabının qələbəsinin on birinci ildönümü ərəfəsində İslam Respublikası quruluşunun vəzifəli şəxsləri ilə görüşdə çıxışdan: 1990.

---

[1] Səbə/46.

**Dua və münacatlarla ünsiyyət**

Bu gün ölkə miqyasında bizim bütün xalqa, xüsusən də bu inqilabı və onun məhsulunu daha çox sevənlərə çox zəruri saydığımız tövsiyə budur ki, hamı Allahla mənəvi əlaqəsini, söhbətini və fərdi ünsiyyətini gücləndirsin. Bu, imamın yoludur və ilahi hidayət Allahla bu ünsiyyətdən, bu mənəvi əlaqədən yaranır. Bu on ildə məhz belə olmuşdur. Siz ixlaslı və pak gənclər müxtəlif cəbhələrdə bu hissi nümayiş etdirmiş, nəticələrini də görmüsünüz. Bizim imamımızın öyrətdiyi dərs də bu idi.

Bir dəfə ondan soruşdum ki, məşhur dualardan hansını daha çox sevir və oxuyursunuz. Bir qədər fikirləşəndən sonra buyurdu ki, Kumeyl duasını və Şəban münacatını. Digər dualar, məsələn, Əbu Həmzə Sumali duası, yaxud İmam Hüseynin (ə) Ərəfə günündəki duası da Allahla güclü mənəvi əlaqə yaratsa da, bu dua və münacatda Allaha qayıdışın, Allahdan əfv diləyinin, yardım istəyinin və yalvarmanın aşiqanə formada olduğu görünür. Kumeyl duası da Allah-Taala ilə münacatdır, bəndə ilə məbud arasında məhəbbət və eşqi təsvir edir. Bu, bizim böyük imamımızın öz ruhunu və qəlbini işıqlandırdığı amildir.

İmam Hüseynin (ə) doğum günündə korpus mühafizəçiləri ilə görüşdə çıxışdan: 1990.

**Həzrət imamın keçmiş fəqihlərə hörməti**

Mərhum İmam Xomeyni həqiqətən hər cəhətdən nümunə idi. Mən, "hər cəhətdən" sözünü tam məsuliyyətlə deyirəm. Hansı aspektdən yanaşırıqsa, insanların, hövzə tələbələrinin və xalqın öncüllərinin ona oxşamasının lazım olduğunu görürük. O, Qumda tədris üçün ilk dəfə minbərdə oturanda mən orada idim. O vaxtda qədər yerdə oturub dərs deyirdi. Bir müddətdən sonra tələbələrin sayı artdı və onlar imamın özünü görüb səsini yaxşı eşitmək üçün onun minbərdə oturmasını təkidlə xahiş etdilər. Zənnimcə, o, mərhum Ayətullah Bürucerdinin vəfatından sonra bunu qəbul etdi, o, vəfat edənə qədər minbərdə oturmadı. İmam Xomeyni həmin dərsi bütünlüklə nəsihətə sərf etdi. Bismillahdan sonra mərhum Naininin tədris üçün ilk dəfə minbərdə oturmasından danışdı. Mərhum Naini o zaman ağlayıb demişdi ki, bu minbər üzərində Şeyx Ənsari oturub, indi mənim kimisi oturmalıdır. İmam beləliklə tələbələrə nəsihət verməyə başladı, dedi ki, nə iş gördüyünüzü və bu məsuliyyətin nə qədər böyük olduğunu başa düşün. İmamın həmin gündəki söhbətinin təfərrüatı yadımda deyil. Bu söhbətləri edəndə o, böyük bir müəllim və təqlid müctəhidi həddində görkəmli bir fəqih idi. Məsuliyyət hissi bu qədər mühümdür. Belə bir məqamdan tutmuş aşağı təbəqələrdə olan ruhanilərə, adi mərsiyəxanlara, rövzəxanlara qədər hamı üzərinə düşən işdə məsuliyyət hiss etməlidir. Bir rövzəxanın peşəsi yüksək səviyyəli bir müəllimin peşəsindən dərəcə baxımından aşağı olsa da, o da məsuliyyət hiss etməlidir.

Məşhəd Elm Hövzəsinin müəllim, tələbə və ruhaniləri ilə görüşdə çıxışdan: 1990.

## İmamın şəxsiyyətinin vəsfəgəlməz olması

İmamın şəxsiyyətinin həqiqətən çoxlu üstün cəhətləri vardı, universal idi. Bu bir ildə biz imamı həmişə öz aramızda görmüşük. Son bir il ərzində imamın bizim cəmiyyətimizdə hazır olmadığı bir gün də olmayıb. Mən ümidvaram ki, bizim ölkəmizdə yüz illərlə belə olsun. Bizim hamımız buna çalışmalıyıq. İmam fiziki baxımdan aramızda olmasa da, onun müxtəlif formalarda bəyan etdiyi ürək sözü, kimliyi, düşüncəsi və yolu durur. İmam bunları yalnız siyasi çıxışla deməyib. Onda siyasi çıxış, irfani şeir, təbəssüm, qaşqabaq və kiçik bir hadisə üçün ağlamaq da olmuşdur.

Təbrizdə, ya da başqa bir yerdə bir əsir anası mənə dedi ki, uşağım əsir idi, bu gün şəhadət xəbəri gəldi; imama deyin ki, sizə qurban olsun, mən naharat deyiləm. Bu qadın çox qəribə vəziyyətdə idi. Gördüm ki, kütləni yarıb gəlir. Qarşısını almaq istədilər, dedim ki, qoyun gəlsin, görək nə deyir. Gəlib bu sözü dedi. Mən bu sözdən çox təsirləndim. İmamın yanına gələndə bunu söyləmək yadımdan çıxdı. Bayıra çıxandan sonra xatırladım, oradakı qardaşların birinə dedim ki, imama deyin bir cümlə qaldı. Bu sözü çatdıranda imamın çöhrəsi elə dəyişdi və elə ağladı ki, deməyimə peşman oldum. Bu həqiqətən çox qəribədir. Biz bu qədər şəhid vermişik - məgər zarafatdır?! İnqilab qəhrəmanlarından yetmiş ikisi bir yerdə qurban getdi, amma o, dağ kimi möhkəm dayandı, sanki heç bir hadisə baş verməyib. İndi isə bir əsirin öldürülməsinə görə ağlayır. Bunlar nədir? Mən anlamıram. Ümumiyyətlə, bu şəxsiyyətin vəsfi mümkün deyil.

İmam Xomeyninin vəfatının birinci ildönümü tədbirlərinin Təşkilat komitəsinin üzvləri ilə görüşdə çıxışdan: 1990.

**Birliyin mənası**

Siz böyük imamımızın müxtəlif müraciətlərdə, çıxışlarda və xüsusi tövsiyələrdə birlik üzərində nə qədər təkid göstərdiyini gördünüz.

Mən xatırlayım, liberalların fitnəsi bütün ölkənin diqqətini özünə cəlb edən illərdə biz çox zaman imamın yanına gedirdik: ya şikayət edirdik, ya bizim işimiz olurdu, ya da onun. Həmin görüşlərdə imam dəfələrlə buyururdu ki, konfliktiniz olsa da, bunu öz aranızda həll edin, nə üçün hamının önündə söyləyirsiniz?

O, belə deyəndə bizim tərəf dinləyib ağzını yumurdu. Mərhum Şəhid Behişti sizin yadınızdadır; onun sözü çox və söyləmək imkanı geniş olsa da, sükut edirdi, qarşı tərəf isə etmirdi. İmam birliyi qoruyub vəziyyətin gərginləşməsinə imkan vermirdi. Birlik məsələsi bu qədər mühümdür.

Ayrı-ayrı cinahlardan olan qardaşların parlamentdə və ya parlament xaricində fikir ayrılıqları və üslub fərqləri ola bilər. Təbii ki, bu sizin hamınıza aid deyil. Mən buna əminəm. Dəfələrlə deyilib və hamı da bilir ki, bu fikir ayrılıqlarının bir qədəri təbiidir. Amma çox təbii görünən və bir cəmiyyətdə, xüsusən də bizim cəmiyyətimiz kimi azad İslam cəmiyyətində qaçılmaz və hətta lazım olan bu fikir ayrılıqları öz həddindən çıxsa, mütləq düşmənin xeyrinə olar. Cinah və qrup münaqişələrində həddi saxlayın.

İmam bir dəfə parlamentə buyurdu ki, bir-birinizlə hövzə tələbələri kimi mübahisə edin. Hövzə tələbəsi olmuş və ya olan şəxslər bilirlər ki, onlar mübahisə edərkən bəzən sərt sözlər deyir və bir-birini pisləyirlər. Biri kənardan baxsa, onların arasında ömürlərinin sonuna qədər bitməyəcək bir kin-küdurətin olduğunu düşünər. Mübahisə qurtarandan sonra isə hər şey bitir; oturub bir yerdə çay içir, söhbət edir, birgə səfərə çıxır və gəzirlər. İmam parlamentə buyurdu ki, bir-birinizlə belə mübahisə edin, hansı cinahdan olsanız, aranızdakı fikir ayrılığının düşməni sevindirəcək həddə çatmasına qoymayın.

Höccətül-İslam Hacı Seyid Əhməd Xomeyni və İran İslam Respublikası quruluşunun vəzifəli şəxsləri ilə görüşdə çıxışdan: 1990.

## Xalq tərəfindən seçilənləri dəstəkləmək

İnqilabın bizə borcu yoxdur; heç kimə borcu yoxdur: “Onlar İslamı qəbul etdiklərinə görə sənə minnət qoyurlar. De: “Müsəlman olmanızla mənə minnət qoymayın! Xeyr, əgər (iman gətirdiyinizi) doğru deyirsinizsə, sizi imana müvəffəq etməklə, əslində Allah sizin boynunuza minnət qoymuş olur!”[1] Allah-Taala bizim bu inqilabın ön sıralarında durub hərəkət edə və işləyə bilməmiz üçün bizə yardım etdi. Bizlər bu inqilaba borcluyuq. Bu inqilabın bizə borcu yoxdur, amma dünya müsəlmanlarına və xalqımıza borcu var. Hərçənd, xoşbəxtlikdən, onlar da bu inqilaba qarşı tələbkarlıq hiss etmir və ozlərini inqilabın əsgəri bilirlər.

Hamı dövlət məmurlarına, xüsusən də hökumətə kömək etməlidir. Bu bir borcdur. İmam özünün 11 ilə yaxın səmərəli və müstəsna rəhbərliyi dövründə daim bunu tapşırırdı. Maraqlıdır ki, o, hökumətin başında kimin durmasına baxmırdı. Bir dəfə Baş nazir təqdim etməli idim. O dedi ki, kim parlamentin səsini qazansa, mən onu dəstəkləyəcək və müdafiə edəcəyəm. Kimin səs qazanacağını bilmirdi, amma deyirdi ki, kim gəlsə və hansı kabinet qurulsa, onu dəstəkləyəcəyəm.

Höccətül-İslam Hacı Seyid Əhməd Xomeyni və İran İslam Respublikası quruluşunun vəzifəli şəxsləri ilə görüşdə çıxışdan: 1990

---

[1] Hucurat/17.

**Yalnız bir cümlə: "Bir-birinizlə yola gedin!"**

Ailədə əsas məsələ qız və oğlanın yola getməsidir; gərək bir-biri ilə yola getsinlər. Bunun çox dərin məzmunu var. Mən bir dəfə imamın yanına getdim. O, nikah əqdi oxumaq istəyirdi. Məni gördükdə dedi ki, gəl birinin vəkili sən ol. O, nikah əqdi oxuyanda bizim kimi uzun-uzadı danışmırdı. Əvvəl əqdi oxuyurdu, sonra iki-üç qısa cümlə deyirdi. Mən gördüm ki, o, əqdi oxuyandan sonra üzünü qız və oğlana tutub dedi: "Bir-birinizlə yola gedin".

Nikah əqdi mərasimində çıxışdan: 1991.

### Həqiqi bir həkim

Bəni-Sədrin prezident olduğu dövrdə bir dəfə imamın yanına getdim. Biz imamın prezident haqqındakı sözümüzü qəbul etməsindən məyus olmuşduq; tək-tək gedirdik, qrup halında gedirdik, yazılı və şifahi şəkildə deyirdik, amma xeyri olmurdu. Mən bir dəfə imamın yanına gedib açıq şəkildə dedim ki, cənab Bəni-Sədrə qarşı tədbir görməyin mümkün olmadığı üçün mən inqilabdan qabaqkı üsulla hərəkət etmək qərarına gəlmişəm. Biz inqilabdan öncə bəzi sözlər danışırdıq. Bu sözlər haqda düşünənlər rejimə qarşı müəyyən mövqe seçirdilər. Mən dedim ki, indi belə sözlər danışmağa məcburam. Yəni kim bu sözlər haqda düşünsə, cənab Bəni-Sədrə qarşı çıxacaq. İmam baxıb təbəssüm etdi və heç bir söz demədi.

O zaman bəzən ürəyimiz dolur və imamın yanına gedirdik. Amma bayıra çıxanda dostlara deyirdik ki, imam başımıza əlini çəkdi, nəvazişlə ağzımıza halva qoydu və bizi yola saldı. Sonra yenə görürdük ki, öz çıxışında deyir "cənab prezident", "cənab Bəni-Sədr"; yəni rəftarı dəyişmirdi. O, belə məsləhət görürdü. Çünki hər halda, hikmətli adam idi. İmam sözün əsl mənasında bir həkim idi, bizim görə bilmədiyimiz pərdəarxasını həqiqətən görürdü. O bizim görmə qabiliyyətimizdən olduqca xırda məsələləri görürdü.

Sənət adamları ilə görüşdə çıxışdan: 1991.

**İmamın hadisələrə dair ümidverici açıqlaması**

Prezident olduğum zaman görüşlərimin xülasəsini yazırdım. Görürəm ki, indiki kimi, o zaman da gəlib bizə gileylənir və vəziyyətin dözülməz olduğunu deyirdilər.

Ümumiyyətlə, bəzilərinin "apardılar, taladılar, düşmən qələbə çaldı, düşmən hakim oldu" kimi sözlər deməkdən xoşları gəlir. Düşmən qələt edir qələbə çalır. Düşmənin qələbəsi möminləri qorxutmasıdır. Düşmənin qələbəsi odur ki, məmləkətin ən yaxşı gəncləri bu gəmidə qurtuluş görməsinlər.

Müharibənin ağır zərbələr aldığımız ən çətin vaxtlarında imam böyük qəlbi və ilahi nuru ilə hamıya ümid verirdi. Bir dəfə güclü zərbə alanda imamın yanına gəlib dedilər ki, biz məğlub olduq. İmam buyurdu ki, məğlubiyyət deyil, əslində qələbə çalmadıq.

Bir hadisəni iki növ izah etmək olar. Bizdən min nəfər, beş min nəfər öldürülmüşdürsə, bunu iki cür izah etmək olar: məğlubiyyət kimi və qələbədən məhrumluq kimi. İmam demək istəyirdi ki, bir şey olmayıb, siz qələbə çalmaq istədiniz, amma hələ buna nail olmamısınız. O həmişə bizə belə ümid verib cəmiyyəti və ölkəni hərəkətə gətirirdi. İndi bir qrupun bütün fikri-zikri bunun əksinə yönəlib.

Fəqih Rəhbərin İslam İnqilabının Mühafiçələri Korpusundakı nümayəndəliklərinin başçılarının və zabitlərinin dördüncü böyük toplantısında çıxışdan: 1991.

**Uzaqgörənliklə yanaşı açıq danışmaq**

İnsan səbirlə və uzaqgörənliklə danışmalı, amma həmin halda mövqelər üzərində cəsarəti, açıqlığı və müqaviməti də nəzərə almalıdır.

İmamın İrana qayıtdığı zaman hərəkatın ən azı bəzi səviyyələrində dırnaqarası ziyalı ideyaları hakim idi. Bu ziyalıpərəstliyin qızışmasında hətta bizim kimi ruhanilərin də rolu olmuşdu. İmam isə bunların hamısını götürüb kənara qoydu. Mən imamın hava limanındakı birinci çıxışı zamanı keçirdiyim hissləri xatırlayıram. Həqiqətən təəccübləndim ki, imam bizdən fərqli olaraq heç nədən çəkinmir. O həmin çıxışda əvvəlcə ruhanilərin adını çəkdi. Onun yerinə biz olsaydıq, bunu etməzdik. Əgər o zaman biz çıxış etməli olsaydıq, ruhanilərdən başlamazdıq, imam isə bunu əsla nəzərə almadı.

Qələbənin ilk aylarında imam hicab məsələsini qətiyyətlə ortaya qoydu. O zaman biz İnqilab şurasının üzvü kimi Dövlət şurasının bəzi iclaslarında iştirak edirdik. Dövlət şurasının hətta dindar üzvlərindən olan bəzi şəxslər deyirdilər ki, imam nə üçün belə etdi? İmam heç nədən çəkinmirdi.

Hövzə jurnalının təsisçisi, baş redaktoru və redaksiya heyətinin üzvləri ilə görüşdə çıxışdan: 1992.

**İmamın həmişə hakimiyyət orqanlarını müdafiə etməsi**

Səmərəli həyatının inqilab dövründəki on bir ilində neçə hökumət iş başına gəldisə, İmam onların hamısını müdafiə etdi. Müvəqqəti hökuməti müdafiə etdi, sonra Şəhid Rəcainin hökuməti quruldu. İmam yenə də müdafiə etdi. Şəhid Rəcaidən öncə Bəni-Sədr hökumət qurmuşdu, ondan sonra da bizim kabinetimiz iş başına gəldi. Bütün bu dövrlərdə imam bütün hökumət başçılarını müdafiə etdi. O heç bir fərq qoymadan hər bir hökuməti və Baş naziri dəstəkləyirdi. Düzdür, bəzən hökumətlərə etirazı olurdu. Bizim dövrümüzdə də bəzən hökumətə etirazı olurdu. Bu zaman ya mənim vasitəmlə xəbərdarlıq edirdi, ya özü birbaşa etirazını bildirirdi. O, bunları xatırlatmaqla yanaşı hökuməti dəstəkləyirdi; gördüyü nöqsanları xüsusi şəkildə bildirir, amma ictimai rəy önündə hər bir hökuməti dəstəkləyirdi.

Mən prezident olarkən bir dəfə imamın yanında bir nəfərin adını çəkib Baş nazir kimi təqdim etmək istədiyimi dedim. O buyurdu ki, siz kimi təqdim etsəniz və parlament səs versə, mən də təsdiq edəcəyəm. İmama görə insanların arasında fərq yox idi. Onun bəzi baş nazir və ya prezidentlərə xüsusi hörmət göstərməsi mümkün idi, amma onun dəstəyi hörmətdən asılı deyildi. Buyururdu ki, bu şəxs ölkəni idarə edir, üzərində ağır yük var, buna görə də onu müdafiə etməliyik.

Tehranın cümə namazı xütbələrindən: 1992.

## İmamın fərmanı - İslamın fərmanı

Ata-ana öz övladlarına deyirlər ki, sənin hələ 16-17 yaşın var, get dərsini oxu, oynunu oyna, kefini çək, qardaşın gedib şəhid oldu. Gənc isə deyir ki, yox, mən özüm də İslam qarşısında borcumu yerinə yetirməliyəm. Biz bu sözləri şəhidlərin vəsiyyətnamələrində görmüş, onların ata-analarından, ailələrindən eşitmişik. İslamın təsiri budur.

Bir dəfə imam buyurdu ki, bu gün İslamın siz gənclərin köməyinə ehtiyacı var. Mən günortadan sonra küçəyə çıxanda xalqın inqilabın ilk günlərindəki kimi Pavəyə sarı hərəkət etdiyini gördüm. Bu səhnə müharibənin sonuna qədər dəfələrlə təkrarlandı. İmamın fərmanı İslamın fərmanı idi və xalq imamın çağırışlarına İslama görə əməl edirdi.

Təlim və tərbiyə naziri, nazir müavinləri və maarif müdirləri ilə görüşdə çıxışdan: 1992.

**Məsuliyyətin ağırlığı**

Ortaq iş siyasi məşvərətlərə aiddir. Proqramların icrası, hətta əməli proqramlar da bir nəfər tərəfindən həyata keçirilməlidir; yəni bir qrup işləsin və bir nəfər qərar versin; bir qrup proqram hazırlasın, işlərini görsün, məsləhətləşsin, razılaşsın, qərar verən isə bir nəfər olsun. Bir nəfər onun icra olunmasını deməli və özü də icra etməlidir, lakin həmin qrupun müəyyən etdiyi siyasət və istiqamətlərə uyğun şəkildə. Allaha şükür ki, bu iş baş tutur. Hövzənin məşhur alimləri və dəyərli şəxsiyyətləri, hamının qəbul etdiyi və elm hövzəsində hörmətə sahib şəxslər öncül olmalı, bunu dəstəkləməlidirlər. Məsuliyyət budur, ağırdır. Bizim bu qədər təriflədiyimiz məsuliyyət qəbul etmək budur. İmamın dövründə bəzi adamlar ona deyirdilər: "Ağa, biz yorulmuşuq, icazə versəniz, filan işi görmək istəyirik". O deyirdi ki, sizin hamınızdan çox mən yorulmalıyam. Doğru deyirdi. Qoca bir kişi təxminən səksən yaşında belə böyük işi üzərinə götürdü, sinəsini sipər etdi və işə başladı. Demədi ki, mən etmirəm, mən bacarmaram, mən istirahət etməli, təqaüdə çıxmalıyam. İşə başladı, bu yolda da ruhani aləmə qovuşdu, pak ruhu pərvaz etdi. İnsanın məsuliyyəti qəbul etməsi nə qədər gözəldir!

Fiqhin ali-ixtisas (xaric) dərsindəki söhbətlərdən: 1992.

**İmamın əzəməti**

Bizim inqilabımız yalnız müsəlmanları din haqda düşündürmədi, hətta məsihilik üçün də xeyirli oldu. Uzun illər öz dinləri olan məsihilikdən uzaq düşmüş ölkələr din və mənəviyyata üz tutdular. Bunun özü Şərq imperiyasının və marksist rejimin devrilməsinə hazırlıq oldu. Bu hadisə nə qədər böyük və möhtəşəmdir! Düşmənin özünə pusqu seçdiyi yeri Allah-Taala dinin sığınacağı, dini inqilabın məkanı etdi. Görün bu nə qədər möhtəşəmdir! Asılı və azğın rejim dövrünün Tehranı hara, İslam dövrünün Tehranı hara?! Qərbin sapqın dəyərlərinin cücərdiyi tarla hara, İslam dəyərlərinin çiçək və meyvələrinin ərsəyə gəldiyi gülüstan hara?! Allah övliyalarından başqa insanlar arasında o kişi qədər əzəmətli və qüdrətli olan, vücudunda ilahi atributlar tərənnüm olunan bir kimsə tanımırıq. Belə əzəmətli bir kişi sürgündən qayıdıb ölkəyə daxil olur və ilahi qüdrətlə o saat mənəvi dəyərlərdən uzaqlaşmış bir dünyada İslam hakimiyyətinin təməlini qoyur. Bu hadisələr bizim gözümüz önündə baş verdi. Biz imamı və inqilabı yaxından gördük. Amma demək istəyirəm ki, özüm də daxil olmaqla bizim əksərimiz imamın və inqilabın əzəmətini hiss etmədik. Çox möhtəşəmdir. Mən bir dəfə imama dedim ki, tarixdə 200-300 il bundan öncə sizin kimi bir şəxs olsaydı, ondan bir əlamət, əlyazma, imza, yaxud paltarının bir parçası qalsaydı, onu muzeyə qoyub təbərrük edərdik. İndi siz bütün vücudunuzla bizim qarşımızdasınız. Biz sizin əzəmətinizi necə dərk edə, duya bilərik?! Bu bir həqiqətdir.

Mübarək ramazan ayı münasibəti ilə bölgələrə ezam olunan ruhani və təbliğatçılarla görüşdə çıxışdan: 1994.

**Zahiri görkəmdə və təmizlikdə nümunə**

Bəzi adamlar səhvə yol verirlər. Biz deyirik ki, həm yaraşıqlı, həm də ucuz geyimlərdən istifadə edin. Ucuz və sadə geyinmək, daim yaraşıqlı, gözəl və səliqəli olmaq lazımdır. Bu yaxşıdır.

İmam həmişə - istər Qumda müəllimliklə məşğul olanda, istər inqilabın rəhbəri və ölkənin başçısı vəzifəsində çalışanda, istərsə də yaxından və ya KİV vasitəsi ilə bütün dünyanın qarşısına çıxanda öz görkəminə fikir verirdi. Kimsə düşünə bilər ki, son illərdə inqilab rəhbəri və ölkə başçısı olduğuna görə belə edirdi. Lakin Qumda müəllim olanda da biz illərlə onu yaxından görmüşük. O, Qumda zahiri görkəminə görə həqiqətən nümunə idi. Şagirdlərindən soruşsanız, hamısı bunu təsdiqləyər. Onun nəleyni həmişə mazlı, təmiz, əmmaməsi səliqəli olardı. O, əvvəldən həmişə təmiz və səliqəli geyinər, görkəminə fikir verərdi.

Bəsic Müqavimət Qüvvəsinin məsul şəxsləri ilə görüşdə çıxışdan: 1994.

## İmamın zahidliyinə bir nümunə

İmam həqiqətən zahid adam idi. Onun əlindən çoxlu pullar keçirdi. Əslində ölkənin bütün imkanları imamın əlinin altında idi. Əgər imam hökumətə, məmurlara, Mərkəzi banka, prezidentə, başqa hər hansı məmura hansısa məbləğin filan yerdə xərclənməsini desəydi, kimsə bunu edib-etməməsi barədə düşünməzdi də. Hamı Allahdan imamın onlardan bir iş istəməsini arzulayır, bunu həvəslə gözləyirdi. O vaxt ölkə məmurları həqiqətən imamın onlara hansısa iş tapşırmasını istəyirdilər. Bütün bunlarla yanaşı, imam dünyadan köçəndə onun oğlunun bir evi də yox idi. Bunları söyləmək asandır. İmam dünyadan köçəndə oğlunun bir evi və şəxsi mülkü yox idi. İmama şəxsi pul da çox verirdilər. Onun öz övladına bir mənzil almasında da heç bir qəbahət yox idi.

Siz gördünüz ki, imam Zabul məsələsi üçün öz şəxsi pulundan 300 milyon tümən verdi. Kimsə fikirləşə bilər ki, məgər imamın şəxsi pulu vardı? Bəli, rəhbərə pul gətirirdilər. İmam qədər olmasa da, bizə də gətirirlər. Bəzi adamlar rəhbərə pul verməyi sevirlər. Deyirlər ki, bu pul özünüz və şəxsi xərcləriniz üçündür. Mənim də xərclərim bu pullarla təmin olunur. İmamda belə pul çox idi. Biz də imama belə pullardan nə qədər aparırdıqsa, qəbul edirdi. Hətta bir dəfə bir nəfər az məbləğdə pul vermişdi. Mən öz-özümə dedim ki, yəqin imam bunu qəbul etməz. Amma verəndə qəbul etdi. İmam birdən-birə Zabula 300 milyon tümən pul verdi. Axı bu iş təəccüblüdür! Harda görmüsünüz ki, kimsə özünün ana südü kimi halal olan, bir rialı da haram olmayan təmiz şəxsi pulunu belə işlərə ayırsın. O, həmin 300 milyon tümənin 10 milyonunu kənara qoyub deyə bilərdi ki, bununla Hacı Əhməd ağaya ev alın. O vaxt ev də ucuz idi. O, oğluna bir ev alıb, 290 milyonunu həmin işə verə bilərdi, amma belə etmədi. O, 300 milyon tüməni cənab Musəvi Ərdəbiliyə verdi, o da Zabula getdi. Yəqin ki, yadınızdadır. O pul dövlətin deyil, imamın şəxsi pulu idi.

İmam Xomeyninin vəfatının ildönümü tədbirlərinin Təşkilat komitəsinin üzvləri ilə görüşdə çıxışdan: 1994.

**Ölkə idarəsinin çətin olması**

Əgər bu məmləkətdə görülən böyük maddi və mənəvi işlər olmasa, ABŞ, sionizm, onların radioları və başçıları on gün ərzində keçmiş rejimi bərpa edərlər. Siz elə bilirsiniz bunu bacarmazlar?! On gün ərzində bərpa edərlər. Bu məmləkəti böyük bir qüvvə saxlayıb. Şübhəsiz ki, Allahın qüdrəti var, amma Allahın qüdrəti yaxşı qüvvələrin, Allah bəndələrinin və görülən böyük işlərin vasitəsi ilə həyata keçir.

Mənim yadımdadır, imamın dövründə bəzən çoxları onun yanına gedib deyirdilər ki, ağa, filan şey bahadır, filan şey xarab oldu, filan şey anbarlarda çürüdü, filankəs filan işi gördü və s. Bəzən hökumətdən də şikayət edirdilər. O dinləyəndən sonra deyirdi: "Ölkəni idarə etmək çox çətindir". İmam bizim kimi çox danışmır, adətən yalnız bir cümlə deyirdi: "Ölkəni idarə etmək çətindir". Bununla da mövzu bağlanırdı.

Şəhideyn və Həqqani mədrəsələrinin tələbələri ilə görüşdə çıxışdan: 1994.

## Əfsanəyə bənzər reallıq

Mənim əzizlərim! Peyğəmbər (s) mömin və ixlaslı insanlarla işlədi. Əgər siz Allahın lütfü ilə sahib olduğunuz bu ixlası, Allah yolunda cihadı, paklığı və dünyaya vurğun olmamağı - demirəm ki, ümumiyyətlə dünyadan əl çəkin və ona nifrət edin - qorusanız, bizim mömin gənclərimiz də bu xüsusiyyətləri qorusalar, dünyada mövcud olan bütün fəsad tufanları və müxalif qasırğalar arasında elə güclü təməl qoyulacaq ki, fəsad törədənlərin onun bir tərəfini qoparması əsrlər sürəcək. Bu təməli sizlər qoya bilərsiniz. Necə ki, imam belə etdi və ixlaslı mübarizələr nəticəsində bu inqilab ərsəyə gəldi. Məgər bu inqilab zarafatdır?! Məgər bütün güclərin tamah saldığı bu ölkədə inqilab etmək zarafatdır?! Siz görün ABŞ Haiti üçün nə edir, Panama üçün nə edir, Küveyt üçün nə etdi. Küveyti əldən verirdilər, gördünüz ki, nə etdilər. Bununla yanaşı, bu qədər nefti, təbii ehtiyatları, belə böyük ərazisi, starateji və mühüm coğrafi möqeyi olan İranı əldən verərdilər?! Özünə müti olan, fərmanını dinləyən muzdur hökumətini gözü önündə devirmək olardı?! Bu mümkün idi? Bu, əfsanəyə bənzəyirdi, amma həyata keçdi. Əgər yüz dəfə and içsəydilər, ən nikbin adamlar da deyərdilər ki, mümkün deyil. Həm yüksək elmə malik bir ruhani, həm də həbsxana görmüş və mübarizədən əsla qorxmayan siyasi şəxsiyyət olan mərhum Ayətullah Taliqani mənə dedi: "İmam şah üsul-idarəsinin devrilməli olduğunu deyəndə mən dedim ki, bu söz nədir danışır. Məgər bu mümkündür?!" İmam bu sözləri inqilabın qələbəsindən məgər neçə il öncə açıq şəkildə söylədi?! Yəni son zamanlara qədər hətta mərhum Taliqani kimi həbsxana və işgəncə görmüş böyük, mömin və mübariz bir insan da deyirdi ki, mümkün deyil. Sonra mənə bu məzmunda bir cümlə dedi: "Bu kişi başqa yerlə əlaqədədir, başqa yerdən danışır".

İmam bir qrupu öz ardınca çəkən və həqiqətən əfsanəyə bənzər bir iş görməyi bacaran mömin, ixlaslı, ilahi bir insan idi. Bu ümumiyyətlə

inanılası və mümkün deyildi. Hər şeyin İslamın əleyhinə yönəldiyi bir dünyada bütün dünyəvi amillərin İslamdan, imandan və Qurandan uzaq saxlamağa çalışdıqları bir yerdə bir nəfər İslam hökuməti qura bilrədimi?! Məgər belə bir şey mümkün idi?! İmam bunu həyata keçirdi.

Mühafizəçilər korpusunun komandirləri ilə görüşdə çıxışdan: 1994.

**Gözütoxluq və yüksək vəzifəyə can atmamaq**

Müctəhidlərin hamısı olmasa da, əksəri özlərini digərlərindən elmli bilir, amma bunu dillərinə gətirmilər. Bunlar belədirlər, özlərini göstərmək və irəliyə keçmək istəmirlər.

Bütün dünyanın diqqətini özünə cəlb edən və bütün bəşəriyyəti ələ almağı bacaran İmam Xomeyni mərhum Ayətullah Bürucerdinin vəfatından sonra risalə yazmadı, gedib evində oturdu. Nə qədər israr etdilərsə, risalə yazmadı. Mənim özüm də bunu istəyənlərdən idim. O zaman o, cavab vermirdi, yalnız deyirdi ki, ağalar var. Nəhayət, bir qrup gedib onu məcbur etdi, fətvalarını bildiklərinə görə risaləsini tənzim edib çapa verdilər.

Həzrət İmam Cavadın (ə) doğum günü münasibəti ilə ümumi görüşdə çıxışdan: 1994.

## Acı hadisələrə hikmətli baxış

Biz hər an ilahi iradənin təsiri altında olsaq da, acı və xoşagəlməz hadisələr bizə bunu və Allah-Taalanın bizi sınağa çəkdiyini xatırlatmalıdır. İnsan acı hadisələrə bu gözlə baxsa, məncə onların acılığı da azalar. Çünki ölüm və bu kimi hadisələr qaçılmazdır. Heç kəs özünü ölümdən qurtara bilməz.

Mərhum Hacı Əhməd ağa danışırdı ki, bir gün ölkənin mühüm hadisələrindən birini imama xəbər verdim. Onun bundan çox təsirlənməsini gözləyirdim, amma bir qədər fikirləşib dedi ki, əcəl çatıbmış. Bu söz çox düzgün və hikmətamizdir. Hər halda, əcəl hamı üçündür. Məgər bu qapıdan keməməyi bacaran kimsə var?! Yaxşı və ya pis, gənc və ya qoca olmasından asılı olmayaraq hamı keçir. Və bu darvazadan keçmək təəccüb doğurmamalıdır.

Həzrət İmam Xomeyninin ailə üzvləri ilə görüşdə çıxışdan: 1995.

**İmamın iman gücünün təsirləri**

Bu ümmətin və inqilabın rəhbəri səksən yaşında dünyanın ən ağır işlərini üzərinə götürdü. Mən 1980-ci ildə Əhvazdan Tehrana imamın yanına gəldim və bir məsələ haqda şikayətləri çatdırdım. O mənə tapşırdı ki, iclas üçün nəzərdə tutduğu adamlara xəbər verim. İclas ilk dəfə olaraq günorta keçirildi. Gənc ruhlu, aktiv və güclü qoca iclası yorulmadan idarə etdi. Allah üçün görülən işdə yorulmaq yoxdur. Bir dəfə səhvən imanlıların cərgəsinə qoşulmuş rəzil adamlardan biri bir söz dedi, imam ona buyurdu: "Əgər siz bu işi görmək istəmirsinizsə, kənara çəkilin, mən özüm işləri görər və məsuliyyətləri qəbul edirəm". İmamın bir gənc kimi belə səhnəyə atılmasına inanmırdılar. Onun iman gücü bu işləri asanlaşdırırdı. Sözsüz ki, onun bu gücü çox yüksək həddə idi. Biz heç kimdən belə bir iman gözləmirik, sadəcə sizə ən yüksək örnəyi göstərmək istəyirik.

Müqəddəs müdafiə həftəsi münasibə ilə İslam Respublikası ordusunun zabitləri ilə görüşdə çıxışdan: 1995.

**Hətta şəxsi işlərdə də nizam-intizam**

Mən dualarımda Allah-Taaladan ictimai nizam-intizam diləyirəm. Nümunəvi insan olan əziz imamımız ən intizamlı insan sayılırdı, hətta öz şəxsi işlərində də buna riayət edirdi. Onun mərhum oğlu saata baxıb deyirdi ki, ağa, məsələn, saat 13:45 dəqiqədir, nahar yemirsiniz? Bəlli idi ki, nahar vaxtı 13:45 dəqiqədədir, oyan-buyan olmur. O bütün işlərində və həyatında belə dəqiq idi. Nizam-intizam çox əhəmiyyətli məsələdir.

İmam Hüseyin (ə) universitetinin müəllimləri və Elmi şurasının üzvləri ilə görüşdə çıxışdan: 1995.

### Gənclik göz yaşları

Siz gənclərə avamlar yox, alimlər kimi münacat və təvəssül etməyi, ağıllı və ayıq şəkildə Allahı yada salmağı öyrədin. Allah Hacı Əhməd ağaya rəhmət eləsin! O deyirdi ki, imam son zamanlarda gecələr ağlayanda onun göz yaşlarını silmək üçün cib dəsmalı yetmirdi. Hacı Əhməd ağa bunu xüsusi söhbətdə söyləyirdi. Deyirdi ki, onun üçün əl-üz dəsmalı gətirirdik, gözlərinin yaşını onunla silirdi. 90 yaşlı qoca bir kişi 25 və ya 30 yaşlı bir güncə nisbətən gec ağlayır. Bu qocanın isə bütün işləri kimi ağlaması da qəribə və gənclərə bənzər idi.

İmam Hüseyin (ə) universitetinin müəllimləri və Elmi şurasının üzvləri ilə görüşdə çıxışdan: 1995.

**İmamın yorulmazlığı**

Allah-Taala Böyük İmamı elə yaratmışdı ki, məğlubiyyət və yorulmazlıq hiss etmirdi, ruhunda uğursuzluğa yer yox idi, ən çətin vəziyyətlərdə də inkişaf niyyəti vardı. Sizin özünüz səkkizillik müharibə dövründə yaxından gördünüz ki, ən ağır durumlarda da geri çəkilmək qəsdi olmayan birinci şəxs möhkəm dağ kimi dayanan imam idi. İnsanın arxasında belə möhkəm bir dağ duranda rahat mübarizə aparır.

O, mübarizə çağında da belə idi; bütün çətinliklərə, uğursuzluqlara, dəyənəklərə, təzyiqlərə, sürgünə və yaşın çoxluğuna baxmayaraq, yenə də mübarizəni davam etdirirdi. Böyük İmam mübarizəyə başlayanda gənc deyildi, 63 yaşı vardı. Mənim yadımdadır, 1962-ci ildəki çıxışlarında deyirdi ki, mən nədən qorxmalıyam. Məni öldürsələr, əziz Peyğəmbərin (s) və Əmirəlmömininin (ə) dünyadan köçdüyü yaşda vəfat edəcəyəm. Bundan böyük xoşbəxtlik ola bilərmi?! Onun məntiqi bu idi.

Mühafizəçi günü münasibəti ilə Mühafizəçilər korpusunun məsul işçiləri, komandirləri, polis əməkdaşları və İslam inqilabı əlilləri ilə görüşdə çıxışdan: 1995.

**İranı qorumaqda imamın möhkəmliyinin təsirləri**

Allah bilir ki, imam kimi möhkəm bir insan olmasaydı, müharibədə bu məmləkətin ən azı bir-iki vilayəti əldən getmişdi. Bu, çox təhlükəli bir müharibə idi. İndi yazırlar ki, guya Xürrəmşəhr azad ediləndən sonra imam müharibənin bitdiyini söyləyibmiş. Yalan sözlər və əsassız ittihamlardır. Biz işin içində idik. Bu illərdə də kimsə bizdən yalan eşitməyib. O zaman olmayan, yaxud imamın kənarlaşdırdığı şəxslər indi onun adından yalanlar uydururlar. Xürrəmşəhrin azad edilməsindən sonra imam buyurdu ki, bütün sərhədlər boyu dayanın, bir müdafiə xətti yaradın və sərhədlərin içinə girməyin. O, müharibəni bitirməyi tapşırmadı, dedi ki, tam müdafiə halında sərhədlərin kənarında dayanın. Hələ sülh və atəşkəs elan olunmadığı üçün hərbçilər dedilər ki, sərhədlərin kənarında dayanmaq olmur, qarşı tərəf hələ bizimlə vuruşmaq niyyətindədir. Sərhədin kənarında dayanmaq bizim qüvvələrimizi məhv edər. Biz hərəkətə keçməyə məcburuq. Bunu hərbçilər imama dedilər, biz demədik. Mütəxəssis və peşəkar hərbçilər bu sözləri bizim yanımızda imama dedilər. İmam buyurdu ki, çox gözəl, belədirsə, sərhədin kənarında dayanıb məhdud hücumlar edin. Gedib qərargahda oturdular, sərhədlərə yaxın postlara hücum etmək üçün çox yaxşı və uğurlu plan hazırladılar və çox irəli getmədilər. İmam nə vaxt dedi ki, müharibəni bitirin?! İmam 1988-ci ildə də bəzi məmurların israrından sonra bunu qəbul etdi. İmam o zaman da müharibəni bitirməyə razı deyildi. Onun çox möhkəm və təslimolmaz xarakteri vardı. İranı, xalqı və inqilabı xilas edən amil də bu idi. Həm inqilabı qəbul edənlər imama minnətdar olmalıdırlar, həm də inqilab düşməni olan, amma İranı və sərhədləri qəbul edənlər. Beləəri də özlərini ona borclu saymalıdırlar. İmam İranın qalmasına və parçalanmamasına səbəb oldu. Onun bu möhkəmliyi olmasaydı, nəticə ayrı cür olardı.

İran İslam Respublikası Xarici İşlər Nazirliyinin əməkdaşları, səfirlər və səfirlik əməkdaşları ilə görüşdə çıxışdan: 1996.

**Allahın qüdrət əli**

Allahdan yardım alınmayan işin bir tərəfində nöqsan yaranar. Şübhəsiz ki, belədir. Keçmiş və müasir tarixdə buna dair hətta bir isitsna da yoxdur ki, kimsə Allahdan kömək almadan, yardım istəmədən, yaxud ilahi və təbii qanunlara etina etmədən yaxşı və kamil həyata malik olsun. Nə fərd, nə də cəmiyyət üçün belə bir şey mümkün deyil. "Allahdan istəyək" dedikdə məqsəd bu deyil ki, insan ağlı ilə öyrənilmiş təbii qaydaları görməzdən gəlməliyik. Xeyr! Məqsədə nail olmaq üçün iki iş lazımdır: "Axirəti istəyən və onun uğrunda (can-başla) çalışanların zəhməti qəbul olunar"[1]. Birincisi axirət istəyidir. İnsan axirəti istəməli, yəni Allahla mənəvi əlaqə qurmalı, ikincisi isə bundan ötrü çalışmalıdır.

Mən bir dəfə imamın yanına getmişdim. O, xəstə yatırdı. 1986 və ya 87-ci ildə imam çox güclü infarkt keçirmişdi. Bunu kiminsə bilməsinə qoymadıq, xalqın xəbəri olmadı. Ozamankı siyasi durumda və müharibə vəziyyətində bu bəlli olsaydı, çox mənfi təsirlər buraxardı. O zaman bir hadisə baş vermiş və imam o haqda qabaqcadan qərar çıxarmışdı. Mən bunun təfərrüatına toxunmaq istəmirəm. Hər halda, o qərarı verməsəydi, imamın xəstəliyi bəlli olardı, hamı – dost, düşmən, xüsusən də xəbər angentlikləri başa düşərdilər və vəziyyət çox pisləşərdi. Mən yanına gedəndə imam xəstəxana çarpayısında uzanmışdı, qoluna serum qoşulmuşdu. Dedim ki, sizin bir neçə gün öncə verdiyiniz qərar həqiqətən Allahın işi idi. Necə oldu ki, siz bu fikrə düşdünüz və belə bir qərar qəbul etdiniz? Əgər o zaman bunu etməsəydiniz, indi hamı sizin xəstəxanada olduğunuzu və halınızın yaxşı olmadığını başa düşərdi. O dedi: "Mən inqilabın əvvəlindən indiyədək hiss edirəm ki, bir qüvvə bizi düzgün səmtə yönəldir və bizə yardım edir". Onun cümləsi dəqiqliklə belədir. Mən onu yadda saxladım, çıxandan sonra dərhal yazdım. Məqsədi bu idi ki, digər

---

[1] İsra/19.

məsələlər kimi bu məsələdə də Allah-Taala kömək etdi və biz bu qərarı verdik.

Qərbi Azərbaycan vilayətinin idarə başçıları ilə görüşdə çıxışdan: 1996.

## İmamın idmana diqqəti

İdman klubunun fəsadla və idmançılığın dinsizliklə zəruri əlaqəsi yoxdur. Dövrümüzün ən dindar adamı olan İmam Xomeyni idmançı idi. O, ömrünün sonuna qədər hər gün idman edirdi. Onun idmanı piyada gəzintidən ibarət idi. Mən bir dəfə cənab Haşimi Rəfsəncani ilə onun yanına getmişdim. Prezident olduğum dövr idi. Yadımdadır ki, mühüm bir iş üçün gedib imamın yanında oturduq. Sonra onun nəsə narahat olduğunu gördük. Soruşduq ki, bir işinizmi var? Dedi ki, mən piyada gəzməmişəm.

O, hər dəfə iyirmi dəqiqə olmaqla gündə üç dəfə piyada gəzirdi. Biz gedəndə də idman vaxtı imiş. Prezident və parlament sədri görüşə gəlsə də, o, idmanını unutmurdu. İdman onun üçün bu qədər əhəmiyyət daşıyırdı.

Bədən Tərbiyəsi Komitəsinin sədri, sədr müavinləri və ölkənin idman federasiyalarının prezidentləri ilə görüşdə çıxışdan: 1996.

### İmamın dinin siyasətdən ayrılmamasına dair təkidi

Mən prezident olduğum zaman bir dəfə beynəlxalq bir təşkilatda çıxış edəcəkdim. Adətim bu idi ki, belə çıxışlarımın mətnini qabaqca imama göstərir və onun fikrini soruşurdum. O mənə dedi ki, əksəriyyəti qeyri-müsəlman olan ölkə başçılarının qarşısında ediləcək bu çıxışın mətninə dinin siyasətdən ayrı olmamasını da salım. Mən əvvəlcə təəccüb etdim ki, axı bunun məsələyə nə aidiyyəti var, amma onun dediyinə görə bunu özümə borc bilib sözügedən mövzunu mətnə saldım. Çox çalışdım ki, onu çıxışın əvvəlində və mühüm yerdə yerləşdirim.

Sonralar zaman ötdükcə imamın fikrinin doğruluğuna əmin oldum. Qayıdandan sonra dostlara dedim ki, imamın bu fikri əvvəldə mənə qəribə göründü, amma çıxışdan sonra tamamilə düzgün olduğunu anladım. İmamın təkidi bundan ötrü idi ki, bu məsələ üzərində həqiqətən çoxlu işlər görmüşdülər. Yəni düşmən dinin siyasətdən ayrılması üçün çoxlu işlər görmüş, amma özümüzünkülər tərəfindən bunun ayrılmazlığına dair çox az işlənmişdi.

Əhvaz Elm Hövzəsində Xuzistan vilayətinin ruhaniləri ilə görüşdə çıxışdan: 1997.

**İmamın möhtəşəm dözümlülüyü**

İmam ona (Hacı ağa Mustafa Xomeyniyə) çox bağlanmışdı. Onun şəhadəti zamanı imamın nümayiş etdirdiyi dözümlülük isə onu hamının gözündə göylərə ucaltdı. Bizə xəbər çatanda mən Məşhəddə idim. Bəzi dostlar həqiqətən inanmırdılar; hadisə bu qədər böyük və ağır idi. Sonra imamın çıxışının mətni bizə çatdı. O, bu hadisəni Allahın gizli lütfü sayırdı.

Hacı ağa Mustafa Xomeyninin anım tədbirinin təşkilatçıları ilə görüşdə çıxışdan: 1997.

**İmam dünya siyasətçilərinin gözündə**

Mən Əlcəzairə səfər edəndə hava limanından Şadli bin Cədidlə birgə maşına mindim. Siz yəqin bilirsiniz ki, Şadli bin Cədid prezident olanda bəlkə də bütün ərəb ölkələrində heç kəs onun qədər hörmətli və mühüm deyildi. O, inqilabçı bir şəxsiyyət idi, həm də Əlcəzair nisbətən modern və mütərəqqi ölkə sayılırdı. Bu baxımdan, heç kim onu mürtəce hesab etmirdi, seçdiyi mövqelər də hamını razı salırdı. O, Şərqi, Qərbi, amerikalıları razı salmağa çalışırdı. Özünə görə imici vardı. Əlbəttə, məncə saxta imic idi.

Hər halda, Şadli möhtərəm adam idi, parlaq keçmişi olmuşdu və illərlə prezident vəzifəsində çalışmışdı. Mən Əlcəzairə gedəndə 3-4 il idi prezident olmuşdum, o isə bəlkə 10-12 il idi. Mən çoxlu prezidentlərlə görüşmüşəm, onların necə olduqlarını görmüşəm. Hava limanında maşına oturanda mən təbii şəkildə oturmuşdum, o isə mənim sol tərəfimdə əyləşib əllərini dizlərinin üzərinə qoymuşdu. Allah bilir ki, mən onunla söhbət etməyincə danışmağa cürəti çatmırdı, onu qorxu bürümüşdü. Mən bir qədər küçələrdən və havadan soruşdum. Adətən deyirlər ki, yaxşı havanız var. Mən də kompliment kimi dedim ki, havanız çox yaxşıdır. Danışdıq, söhbət etdik, bir qədər zarafatlaşdıq, o da yavaş-yavaş açılışdı və mənimlə danışmağa başladı.

Mən İrana qayıdanda imama dedim ki, Şadli bin Cədid qorxurdu, amma məndən yox, sizdən. Orada mənə baxanda İmam Xomeynini görürdü. Həqiqətən belə idi. İmamın və inqilabın əzəməti elə böyükdür ki, mən yeni, o isə təcrübəli bir prezident olduğuna baxmayaraq, qarşımda elə oturmuşdu. Orada bir gün yarım, yaxud iki gün qaldıq, çox qalmadıq. Sona qədər mənimlə söhbətlərində əvvəlki kimi olmasa da, təxminən eyni vəziyyətdə olurdu. Sonra bizim də bir insan olduğumuzu, danışıb zarafat etdiyimizi, səhvə yol verdiyimizi görəndə bir az adiləşdi. İnqilab bu qədər böyük və möhtəşəmdir.

İranın Avropa ölkələrindəki səfirləri ilə görüşdə çıxışdan: 1997.

### Ahıl çağda dünyanın ən böyük işini görmək

Sizin imam kimi adamların 80-90 yaşlarında gördüyünüz vəziyyətləri onların gəncliyinin davamıdır. İmam İrana gələndə və İslam Respublikasını quranda təxminən 79 yaşı vardı; yəni bu ağır məsuliyyətləri üzərinə götürəndə səksənə yaxın yaşı vardı. Bütün insanların təqaüdə çıxdığı, bir tərəfdə oturduğu, hər bir işə könülsüz və həvəssiz halda yatağa düşdüyü bu yaşlarda imam dünyanın ən böyük işlərinə başladı; bir ölkəni idarə etmək, hətta bir quruluş yaratmaq və onu addım-addım inkişaf etdirmək.

İmam mənəvi cəhətdən də belə idi. Mən bunu dəfələrlə demişəm. Adətən ramazan ayında imamın görüşü olmurdu. Düzdür, bizlər bəzən bu ayda da gedib onunla görüşür, iftarda, ya da başqa bir səbəbdən bir-iki dəfə onun yanında otururduq. Xalq isə əksərən onu görmürdü, biz də normaldan az görürdük. Ramazan ayından sonra xalqın qarşısına çıxanda insan bu bir ayda onun daha da nurlandığını aydın hiss edirdi. Doxsana yaxın yaşı olan bu qoca həmin bir ayda hərəkət və inkişaf edirdi. O, daim inkişafda idi, ramazan ayında isə daha çox və daha ciddi; çünki zaman daha əlverişlidir.

Ramazan ayının 23-də tələbələrin İslam birliklərinin nümayəndələri ilə iftar mərasimində çıxışdan: 1998.

**Gənclikdə bəndəlik**

Mənim yadımdadır, 1970-71-ci illərdə imamın təqlid müctəhidi olması haqda o zaman Nəcəfdə olan Məşhəd alimləri ilə söhbət edirdik. Biz çox böyük və yaxşı insan olan və bir neçə il öncə Allahın rəhmətinə qovuşan məşhur Məşhəd alimlərindən birinin – mərhum Ağa Mirzə Cavad Tehraninin yanına getdik. O, səksən yaşında da cəbhəyə getdi, 60 və 120 mm çaplı minaatanlarla mərmi də atdı. O da çox yaxşı kişi idi. Biz gənc olanda o nisbətən yaşlı idi. O, imamın adını çəkib deyirdi ki, siz onu təzə tanımısınız, biz isə qırx ildir tanıyırıq. O deyirdi: "Mən təhsil üçün Tehrandan Quma gedəndə həzrət Məsumənin məqbərəsində gözüm nazik qara saqqalı olan gözəl və yaraşıqlı bir gəncə düşdü. O, gündüz və gecələr müəyyən bir yerdə ibadətə qərq olur, təhtülhənəkini salıb ibadət edirdi. O zaman qəlbimdə bu gəncə sevgi yarandı. Soruşdum ki, bu kimdir? Dedilər ki, ağa Ruhullahdır. O zaman ona ağa Ruhullah deyirdilər. Mən o vaxtdan bu kişiyə hörmət bəsləyirəm".

Ramazan ayının 23-də tələbələrin İslam birliklərinin nümayəndələri ilə iftar mərasimində çıxışdan: 1998.

**İmamın ölkə idarəçiliyi**

Böyük xalq inqilabı həqiqətən möhtəşəm hadisədir. Belə möhtəşəm hadisəni siz yaratdınız. Səkkizillik müharibədə siz hizbullahçı gənclər qələbə çaldınız. Siyasi və iqtisadi blokadalarda qələbəni siz qazandınız. Bunların hamısı sizin səyinizin nəticəsidir. Aydınlıq budur.

Siz nə üçün üslub fərqli olan bir nəfərin əməlinə görə ittiham olunmalısınız və deyilməlidir ki, bunlar məntiq adamı deyillər, boş-boş danışır, dava-dalaş salır, kobudluq edir, vurur, yandırırlar?! Nə üçün?! Bu, haqsızlıq deyil?! Mən bununla razılaşmıram.

Baxın, imamın üslubu da eynilə belə idi. Elə bilməyin ki, ayrı cür idi. Xeyr! İmamın üslubu eynilə belə idi. Bunu mən sizə deyirəm və təbii ki, buna dair sübutlar var.

Mənim yadımdadır, cənab Natiq Nurinin Ölkə naziri olduğu 85-ci ildə bir qrup gənc xiyabanlarda hicabsızlara hücum edirdilər. İmam ona yazdı ki, gedin bu gəncləri tutun, vurun və həbs edin. İmam belə işlərə qarşı çıxırdı. Halbuki hicab məsələsini bu ölkəyə qaytaran məhz bu şücaətli və misilsiz insan idi. İmamdan başqa heç kəs bunu bacarmazdı. Bu da imamın səciyyələrindən biridir. İmamdan başqa heç bir böyük və müqəddəs alim cəsarət edib deyə biməzdi ki, qadınlar hicabla bayıra çıxsınlar. İmam inqilabın qələbəsinin ilk aylarında dedi ki, qadınlar bayırda hicablı olmalıdırlar. Bu, həmin imamdır, amma eyni zamanda sözügedən üsula müxalif idi, ona etirazını bildirdi və dedi ki, komitə uşaqları bu işlərin qarşısını alsınlar.

Təbii ki, onlar da hizbullahçı uşaqlar idilər, lakin məsələni anlamırdılar, səhv edirdilər. Mən də belə vurmaqla, dava-dalaşla razı deyiləm. Yaxşı, mömin, sədaqətli, səmimi, sağlam və düşüncəli uşaqlar bəzən səhvə yol verirlər.

İslam İnqilabının Mühafizəçiləri Korpusunun komandirləri ilə görüşdə çıxışdan: 1998.

## İrfan və siyasətdən təcrid olunmamaq

Ruhanilər özlərini siyasətdən kənara çəkməməlidirlər. İmam hamıdan arif idi. Ölkədə kim irfanda imama çatardı?! Gördünüz necə aslan kimi səhnəyə çıxdı?! İmam öz böyük müəllimi mərhum Şahabadi haqda demişdi ki, o, siyasi məsələlərlə məşğul olurdu. İmamın dediyinə görə, bir dəfə minbərdə demişdi ki, ətrafımda adam olsaydı, qiyam edərdim. Buna əsasən, irfan insanın bir kənarda oturmasına səbəb olmur. Təbii ki, siyasi məsələləri düzgün anlamaq və sağlam şəkildə irəli sürmək lazımdır. Lakin təcrid olunmaq və siyasətdən qaçmaq əsla məsləhət deyil.

Ayətullah Şahabadinin övladı və xalqın bir qrupu ilə görüşdə çıxışdan: 1998.

**Həqiqi bir sual**

Mənim yadımdan çıxmır, gənclərin casus yuvasını tutmasından və bəlli qalmaqallardan bəlkə də bir ay ötməmişdi. Biz o zaman həcdən yeni gəlmişdik. Mən, cənab Haşimi və adını çəkmək istəmədiyim başqa bir nəfər Tehrandan Quma İmam Xomeyninin yanına getdik ki, tutulanlarla bağlı rəyini soruşaq: qalsınlarmı, qalmasınlarmı, saxlayaqmı, buraxaqmı? Müvəqqəti hökumətin daxilində də bu barədə mübahisə yaranmışdı. Onlarla nə etməli olduğumuzu bilmirdik. Sonra dostlar izah etdilər ki, vəziyyət belədir, radiolar belə deyir, ABŞ və dövlət məmurları elə deyir və sair. İmam bir qədər fikirləşib soruşdu ki, Amerikadan qorxursunuz? Yalnız bunu dedi. Mən gördüm ki, həqiqətən yaxşı sualdır: Amerikadan qorxursunuz? Cavab verdik ki, yox, qorxmuruq. Dedi ki, onda saxlayın.

Adam həqiqətən hiss edirdi ki, bu kişinin özü hər şeylə təmin olunmuş belə böyük zahiri və maddi gücdən, imperiyadan əsla qorxmur. O bu qorxmazlığı, düşmənin maddi gücünə qarşı saymazlığı digərlərinə də aşılayırdı.

Quruluşun Məsləhətini Müəyyənləşdirən Qurumun əməkdaşları ilə görüşdə çıxışdan: 1999.

**İmamın məsuliyyət hissi**

Səmərəli fəaliyyət üçün başqa bir şərt məsuliyyət hissidir. Din və dindarlarla bağlı məsuliyyət hissinin başqa bir adı dini öhdəlik və dindarlıqdır. Əyinti və yayınmalara qarşı laqeydlik və etinasızlıq bu hisslə uyğun gəlmir. Bir xəstənin əziyyət çəkdiyini gördüyü halda ona yardım etməyən bir həkim öhdəçi və məsuliyyətli həkim deyil. Bir korun yıxılmaqda olduğunu görən, amma ona kömək etməyən bir insanın əxlaqi və dini öhdəliyi yoxdur. Laqeydlik və "mənə nə?" halı din alimlərinin, cəmiyyətin aydın və ayıq adamlarının missiyasının və öhdəliyinin böyük düşmənidir. Əsas məsələ budur. Bu xalqın fəsadla dolu azğın tağut rejiminə qarşı mübarizəsi zamanı mənəviyyat, məsuliyyət və öhdəlik mənbəyi olan o böyük insanda və onun işığından can, qüvvə və xətt alan şəxslərdə məsuliyyət hissi olmasaydı, bu xalq hələ də hegemonizmin və onun əlaltılarının rəzalət dolu əsarətində idi. Bu il anmalı olduğumuz kişi həmin məsuliyyətin timsalı idi. O, sakit durmurdu. Mübarizənin əvvəllərində - 1962-63-cü illərdə imamın evində olan bir adam Qumda mənə dedi ki, o, gecələr iki saat yatır, qalanını daim müxtəlif şəhərlərin din alimlərinə, böyüklərinə və xalqa təsir göstərə bilənlərə məktub yazır. Bəli, onda bu hiss olmasaydı, ətrafında da belə fəallıq yaranmaz və bu böyük tarixi hadisə baş verməzdi. Bu kişi ürəyinin xəstə olmasına baxmayaraq, təxminən səksən yaşlarında ən ağır məsuliyyətləri qəbul etdi və heç zaman "yorulmuşam" demədi. Müxtəlif vəzifələrdə çalışıb əziyyət çəkən, yorulan bəzi dostlar imama deyirdilər ki, icazə verin biz gedək; iki il, beş il işlədik, indi gedək öz işimizlə məşğul olaq. Ruhani olanlar deyirdilər ki, gedib dərslərimizlə məşğul olaq. O deyirdi ki, yorulmağa hamınızdan çox mən layiqəm. Doğru da deyirdi; gələnlər onun övladları yerində idilər. Səksəndən artıq yaşı olan xəstə bir qoca belə çalışırdı. Məsuliyyət hissi budur.

Noşəhr şəhərinin cümə imamı və ruhaniləri ilə görüşdə çıxışdan: 1999.

### Mənəvi və duyğusal məsələlərdə təvazöklarlıq və həya

Bir gecə xüsusi bir məclisdə iki-üç nəfərlə birgə mərhum Hacı Əhməd ağanın evində oturmuşduq. İmam da oturmuşdu. Bizlərdən biri dedi ki, ağa, sizin mənəvi-irfani məqamınız var, bir neçə cümlə ilə bizə nəsihət edin. Böyük mənəviyyat sahibi olan bu əzəmətli insan bir şagirdinin - təbii ki, bizim hamımız imamın şagirdləri və övladları kimi idik; bizim rəftarımız da ata qarşısındakı övladın rəftarı kimi idi - qısa tərifi qarşısında utanıb elə xəcalət çəkdi və təvazökarlıq etdi ki, bu, onun rəftarında, üzündə və oturuş tərzində aydın şəkildə hiss olundu. Biz bu sözü deyib imamı utandırdığımıza görə xəcalət çəkdik. O şücaətli və əzəmətli insan duyğusal və mənəvi məsələlərdə belə təvazökar və həyalı idi.

Tehranın cümə namazı xütbələrindən: 1999.

**Çalışqan və müştaq insanların qibləsi**

İmam haqda deyilənlər sevgidən qaynaqlanmır. Sevginin də qaynağı imamda olan həmin xüsusiyyətlər idi. Çoxlu üstün cəhətlərə malik olan bu şəxsiyyət əsla öz üstünlüklərini göstərməyə can atmırdı. Nə zaman və harada şəriət vəzifəsi onu bir hərəkətə vadar edirdisə, şəxsiyyətinin bir cəhəti aşkara çıxırdı.

Mən 1958-ci ildən başlayıram. Həmin ildə mənim özüm Quma getdim və imamı birinci dəfə yaxından gördüm. Ondan öncə Məşhəddə eşitmişdik ki, Qumda gənclərin bəyəndiyi görkəmli və böyük bir müəllim var. Quma daxil olan gənc tələbə müəllim axtarır. Elm hövzələrində müəllim seçimi könüllüdür, hər bir tələbə öz zövqünə uyğun olan və bəyəndiyi müəllimi seçir. İlk anda gənc və həvəskar tələbələri özünə cəlb edən müəllim, şagirdlər arasında Hacı ağa Ruhullah kimi tanınan kişi idi. Əxlaqlı, dərs oxuyan və həvəskar gənclər onun dərsinə toplaşmışdılar. Biz belə bir şəraitdə Quma daxil olduq.

O, elmi yenilikçi, fiqh və üsulda mütəxəssis idi. Mən ondan öncə Məşhəddə böyük bir müəllim - görkəmli fəqihlərdən olan mərhum Ayətullah Milanini görmüşdüm. Qumda da hövzənin rəisi və imamın müəllim olan mərhum Ayətullah Bürucerdi və digər böyüklər vardılar. Lakin həvəskar, çalışqan və istedadlı gənclər üçün maraqlı və cəlbedici dərs imamın fiqh və üsul dərsləri idi. Yavaş-yavaş köhnə tələbələrdən eşitdik ki, bu insan həm də böyük filosofdur, fəlsəfə dərsi Qumda birinci fəlsəfə dərsi olmuşdur, lakin indi fiqhi tədris etməyi tərcih edir. Sonra eşitdik ki, bu insan həm də əxlaq müəllimi olmuşdur. Bəzi şəxslər onun əxlaq dərsində iştirak edirdilər və o, gənclərdə əxlaqi dəyərləri gücləndirməyə çalışırdı. Biz uzun illər ərzində dərs əsnasında bunu yaxından da gördük.

Tehranın cümə namazı xütbələrindən: 1999.

**Böyük məqsədlərə zəruri olan gözəl əxlaq**

Gözəl əxlaq, şirin dil, gülərüzlülük və mehribanlıq çox möcüzələr edir: "Belə olduqda aranızda düşmənçilik olan şəxsi, sanki yaxın bir dost görərsən!"[1] Bu, Quran ayəsidir. İnsan hətta müxalif və düşmənlərlə də belə rəftar etməlidir. Təbii ki, bu mənim kimilər üçün çətindir, lakin insan məqsəddən ötrü çətin işi də görməlidir.

1962-ci ildə müxtəlif şəhərlərdə olan iki nəfər imamdan gileylənmişdi. İmamın yenicə şöhrətlənməyə başladığı zaman idi. Mən dostların biri ilə imamın yanına getdim. Seyid Məhəmməd Vəramini dedi ki, ağa xəstədir. Mən dedim ki, bir neçə dəqiqədən artıq əziyyət verməyəcəyik. Gəlib dedi ki, yalnız 20 dəqiqə olar. İmamın yanına getdik, söhbət qızışdı və imam təxminən 50 dəqiqə danışdı. Mən həmin iki nəfərin gileyini imama çatdırdım. Bilirsiniz ki, imam xüsusən əvvəllərdə çox azdanışan və səbirli idi. Söhbətə girişib onun-bunun halını soruşmazdı. Fatimiyyə ongünlüyündə üç gün rövzə məclisi qurar, otağında oturar və qəm dəryasına qərq olardı. Kim gəlsəydi, yalnız "Allah axşamınızı xeyir etsin" deyərdi. Kimsə bir şey soruşsaydı, o zaman yavaş-yavaş söhbət açılardı. Bunu hamı bilirdi. O dedi ki, vəziyyətimdən və fəaliyyətlərimdən irəli gələrək indi Allahdan ötrü insanlarla isti söhbətlər edir, hətta bəzi adamlar üçün paketin arxasındakı adlarını haqları olduğundan daha hörmətli şəkildə yazıram. Nə üçün? Çünki o, qarşısına böyük bir məqsəd qoymuşdu.

İnsanın qarşısında böyük məqsəd olanda xalqa və tərəf-müqabillərinə qarşı bu əxlaqa riayət etməlidir. İmam bu işi görürdü.

Xalqın müxtəlif təbəqlərinin nümayəndələri ilə görüşdə çıxışdan: 2000.

---

[1] Fussilət/34.

## Böyük və həqiqi amalları davam etdirmək

Mühüm olan budur ki, coşqu, şövq və həvəs məntiqə və elmə əsaslansın. Korpusda və Bəsicdə insanı heyrətə gətirən budur. Məntiqsiz və dayaz hisslər müəyyən hadisələrlə üzləşdikdə bəzən sönür, bəzən hətta öz ziddinə çevrilir. Hisslər düşüncəyə, imana və məntiqə əsaslandıqda isə günbəgün daha şəffaf olur, daha dərinləşir, təhlükə zamanı daha çox işə yarayır. Mühafizəçilər korpusuna qarşı hörmət yaradan amil budur.

Siz əzizlərin bəziləriniz müqəddəs müdafiə dövrünün yadigarlarısınız. Sizin çoxunuz ölkəmizin tarixinin bənzərsiz çağında yaşamış, o zamanı görmüş, bəziləriniz də həmin dövr haqda eşitmisiniz. İran xalqı üçün böyük əhəmiyyət kəsb edən budur ki, o, böyük bir amaldan və uca məqsəddən ötrü qiyam etdi. Bu da Allahın lütfü idi. Allaha dəfələrlə şükür edirik ki, bizi oyanış, ayıqlıq və hərəkət dövründə yaşatdı. Bir dəfə imama dedim ki, bizi sizin dövrünüzdə dünyaya gətirdiyi üçün Allaha daim şükür etsək, yenə azdır. Bütün bu amillər o əzəmətli şəxsiyyətlə birgə İran xalqına bu imkanı verdi, o, İslam ümmətinin sönmüş arzularını və boğazında qalmış fəryadlarını dünyaya çatdırdı. İran xalqının amalı bütün İslam ümməti üçün ortaq olan böyük və həqiqi bir amal idi. Bu gün də elədir.

İslam İnqilabının Mühafizəçiləri Korpusunun İmam Hüseyn (ə) diviziyasının döyüşçüləri ilə görüşdə çıxışdan: 2001.

### "Xürrəmşəhri Allah azad etdi" sözünün mənası

Qurulmasından iki il ötmüş yeni dövlətimiz çox güclü hücuma məruz qalmışdı. Düşmən ölkəmizin sərhədinin minlərlə kilometrində - ən cənub nöqtədən İraqla qonşu olan ən şimal nöqtəyə qədər yerləşmişdi. Eyni zamanda bizə deyirdilər ki, gəlin müzakirə aparın. Biz zəif və ağır bir durumda, qarşı tərəf isə güclü və əlidolu idi. Bəzi siyasətçilər o zaman imama təzyiq göstərirdilər ki, gəlin müzakirə edin. Biz o zaman müzakirəyə getsəydik, əmin olun ki, İraq bizim torpaqlarımızın əsas hissəsindən çıxmayacaqdı, Xuzistan, Xürrəmşəhr və bəlkə də başqa bir çox bölgələr hələ də əcnəbi işğalçıların ayaqları altında idi. İmam isə möhkəm dayandı. İmamın məntiqi bu idi ki, təcavüzkar bizim torpağımızdadırsa və qalib şəkildə bizi hədələyirsə, müzakirə aparmayacağıq. Müzakirə düşmənin bizim bütün torpaqlarımızdan çıxmasından sonra başlayacaq. Bu gün bəzi qüvvələr namərdliklə bunu görməzliyə vururlar. O zaman bir qrup, o cümlədən bu gün ABŞ-a, Avropaya və digər yerlərə sığınmış fərarilər öz siyasi tribunalarından, qəzetlərdən, radio və televiziyadan imamın müzakirəyə qoşulması üçün daim təzyiq göstərirdilər. Beynəlxalq qruplar tez-tez İrana gəlib deyirdilər ki, müzakirə aparın. İmam aydın baxışdan, güclü imandan, Allaha təvəkküldən və möhkəm iradədən ilham alaraq müqavimət göstərdi, dedi ki, bu gün müzakirə zamanı deyil, biz torpaqlarımızı alandan sonra müzakirə aparacağıq. Elə də oldu.

Ürəklərin qəm-kədərlə dolduğu və İraqın bütün dünyanın gözü önündə meydan suladığı belə bir şəraitdə bizim qüvvələrimiz ən zəif maddi imkanlardan da məhrum idi. Bu bir həqiqətdir. Mənim yadımdan çıxmır, bu gün bu məclisdə iştirak edən ozamankı fədakar zabitlərdən biri bir neçə nəfərlə birgə Əhvazda bizim yanımıza gəldi. Onlar bir qədər irəli bölgələrdə vuruşmaq üçün bir neçə minaatan istəyirdilər, amma bunu verən yox idi. Tank və digər ağır texnikalar bir

yana, bizim hətta tikanlı məftil, patron və RPG problemimiz də vardı. İran xalqının sərvəti güclü iradədən, iman və ayıqlıqdan irəli gələn hərtərəfli fəallıqdan ibarət idi. İmamın "Xürrəmşəhri Allah azad etdi" cümləsinin mənası budur.

Xürrəmşəhrin azadlığının ildönümü münasibəti ilə xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdə çıxışdan: 2002.

## İmamın məmurlara daimi tövsiyəsi

Məmur cavabdeh şəxs olmalı, həqiqətən məsuliyyət hiss etməlidir. Vəzifə bəzilərinin düşündüyü kimi tam ixtiyar sahibi olmaq demək deyil. Bəzi adamlar bir vəzifəyə təyin olunanda elə bilirlər ki, çapıb-talamaq üçün geniş imkan əldə etmişlər. Məsuliyyəti və vəzifəni belə başa düşmək olmaz. Düzdür, bir nəfərin ixtiyarına müəyyən imkanlar buraxılanda, hansısa məqsəddən ötrü bir sahənin ixtiyar və imkanları bir şəxsə veriləndə təbii ki, əli açıq olur. Bunda şübhə yoxdur. Lakin bu açıq əl və bu iş bacarığı tam məsuliyyət hiss ilə yanaşı olmalıdır. Yəni insan özünü cavabdeh şəxs mövqeyində bilməli, həmişə cavabdehliyə hazır olmalıdır. İnsan mahiyyətindən irəli gələrək bəzi işləri gizli görür. Amma həmin işləri də elə görməlidir ki, sabah bundan ötrü efirə çıxmalı olsa, qorxmasın. Bu, imamın bizə daimi tövsiyələrindəndir. İmam deyirdi ki, hətta gizli işləri də elə görün ki, sabah aşkara çıxsa, qorxunuz olmasın. Əgər siyasi bir müzakirə aparır, bazarlıq edir, kiməsə sərəncam veririsinizsə, yaxud kiminləsə gizli müqavilə bağlayırsınızsa, elə edin ki, bir gün ifşa olunsa, probleminiz olmasın və çox başucalığı ilə deyəsiniz: "Bəli, bu işi mən görmüşəm". Qayda budur.

Mübarək ramazan ayında Dövlət şurası ilə görüşdə çıxışdan: 2002.

**Hövzədə azadfikirlilik və imam**

Heç bir mütəkəllim, filosof, yaxud fəqih özündən öncəki qəti elmi bir nəzəriyyəni tamamilə sıradan çıxarmaqdan çəkinmir və heç kimin ona bu barədə irad bildirməsindən də qorxmur. Çünki ümumiyyətlə hövzədə belə bir şey yoxdur. Keçmiş alimlərin fikirlərini tənqid etmək hövzədə bir ənənədir. İmam Qumda tədris edəndə mərhum Ayətullah Naininin o zaman geniş yayılmış fikirlərini söyləyir və sonra bir-bir nöqsanlarını sadalayaraq nəzəriyyəni sıradan çıxarırdı, heç kəs də etiraz etmirdi. Kimsə həmin nəzəriyyənin tərəfdarı olsaydı da, gedib öz dərsində, yaxud müəlliminin dərslərinə yazdığı haşiyədə qeyd edirdi ki, mən müəllimin bu sözünü qəbul etmirəm. İmamın bəzi dərsləri şagirdləri tərəfindən yazılıb çap olunmuşdur. Görürsünüz ki, çox yerdə özündən öncəki böyük alimlərin əsaslarını tənqid edir və onların yerinə yeni əsaslar irəli sürür. İmamın həmin dərsini yazan şagirdi də çoxlu yerləri şərh edərək imama irad tutur ki, bu söz düzgün deyil. Bu zaman nə öncəki nəzəriyyənin sahibi kiçilir, nə kimsə imama etiraz edir, nə də kimsə ona şərh yazan şagirdinə. Hövzənin işi belədir. Mənim yadımdadır, inqilabdan öncə bəzi tələbələr və solçu siyasi fəallarla keçirilən məclislərdə kimsə marksizmin əsaslarına qarşı fikir bildirsəydi, dəlil-sübuta lüzum görmədən deyirdilər ki, bu söz səhvdir. Quranın dediyi kimi edirdilər: "Biz ata-babalarımızı bir dinə inanan gördük"[1]. Onu eşitdiklərinə və əmin olduqlarına görə ona qarşı çıxan hər bir məntiqli sözü yanlış hesab edirdilər. Fanatizm orada daha güclüdür.

"Qələm əhli" birliyinin üzvləri ilə görüşdə çıxışdan: 2003.

---

[1] Zuxruf/22.

### Bütün təbəqələrdə yaxşı və pisin olması

Bəzən insan görür ki, bir aktyor bir yerdə çox yaxşı rol oynayıb, amma zəif yazılmış başqa bir əlaqəsiz ssenaridə öz karyerasını da korlayıb. İncəsənəti dəyərli etmək və onun dəyərli olmasına çalışmaq lazımdır.

İkinci məsələ istiqamətdir. İncəsənətin istiqaməti var... Əziz qardaşımız buyurdu ki, pis ruhanimiz olmadığı kimi, pis sənətkarımız da yoxdur. Amma əslində hər iki təbəqədən olan pis adamımız var; həm pis ruhani, həm pis sənətkar. Ruhani, axund və müctəhid, lakin eyni zamanda hakim və istismarçıların aləti olan ruhanilər xalqın evini yıxdılar; bizim də evimizi yıxdılar. Məgər bunlardan bizdə az olmuşdur?! Mən bir dəfə dərdləşmək üçün Məşhəddən imama bir məktub yazdım, dedim ki, bir neçə tərəfdən təzyiq altındayıq: biri SAVAK tərəfindən, biri filan qüvvələr tərəfindən, biri də öz libasımızda olan bəzi şəxslər tərəfindən. Mən həmin məktubu çox zəhmətlə ona göndərdim. O, cavabda belə yazmışdı: "Burada da elədir".

Nəinki pis, hətta xain və bədxah sənətkarlarımız da var. Amerikalı yazıçı Con Steynbek əvvəlcə "Qəzəb salxımları" kitabını yazmış və dəyərli işlər görmüşdü. Mən onun həyatı barədə oxudum ki, son zamanlarda, hamının əvvəlki kimi əsərlər təqdim etməsini gözlədiyi halda gedib tam əksini etmişdir. Sonra bəlli oldu ki, kompaniyalar onu görüb və belə yazması üçün pul veriblər. Bizdə də belələri vardı, istisna deyil. Bizdə o qədər güclü dindar olan incəsənət xadimləri var idi ki, biz deyirdik kaş onlar kimi olaydıq. Sonra birdən-birə tam ayrı cür olduqlarını, 180 dərəcə dəyişdiklərini gördük. Həm yaxşı sənətkarımız var, həm pis. Mühüm budur ki, sənətin istiqaməti qorunsun.

Mədəniyyət və incəsənət xadimləri ilə görüşdə çıxışdan: 2003.

### İmamın arxayınlığı

Müharibənin başladığı ilk günlərdə ümidsizliyə uğramış bəzi adamlar mənə bir kağız verdilər. Mən o kağızı hələ də öz sənədlərim arasında saxlayıram. O kağızda təxminən 17-18 hərbi və nəqliyyat təyyarəsinin siyahısını yazıb hər birinin önündən neçə günə qədər işləyə biləcəyini qeyd etmişdilər. Ən uzun müddəti C-130 təyyarəsinə yazmışdılar. O təxminən iyirmi gündən bir qədər artıq işləyə bilərdi. Yazmışdılar ki, məsələn F-5 on gün, F-14 üç gün işləyə bilər. Bu o demək idi ki, fatihə oxumaq lazımdır; müharibədən əl çəkin, biz bu döyüş texnikaları ilə vuruşa bilmərik. İmamın nümayəndəsi olduğuma görə bu kağızı rəsmən mənə verdilər. Zirzəmidə yerləşən müştərək qərargahda həmişə bir qədər adam olurdu. Prezident və digərləri də oraya gəlirdilər. Məndən bir şöbəyə daxil olmağımı istədilər. Daxil olub gördüm ki, sizin hamısını tanıdığınız bir neçə məşhur adam oraya toplaşıb. Onlar dedilər ki, bizim sizinlə ciddi söhbət etməyimiz lazımdır. Ciddi söhbətləri həmin kağızdan ibarət idi. Mən də həqiqətən qorxdum və ertəsi gün o kağızı imamın yanına aparıb dedim ki, bunlar belə deyirlər. İmam dedi ki, fikir verməyin, siz bacaracaqsınız.

Həmədan şəhərinin Şəhid Nojə hərbi bazasında Hərbi Hava Qüvvələrinin komandirləri ilə görüşdə çıxışdan: 2004.

**İmamın müsəlmanların həmrəyliyinə sevinməsi**

Kürdüstana və Qərbi Azərbaycana səfər zamanı Sənəndəc və Məhabad şəhərlərinin əhalisi, kürd əzizlər, həmin bölgələrin ruhaniləri və ziyalıları ilə görüşdüm. Onlar imama və inqilaba qarşı hörmət ifadə edirdilər. Bu, düşmənlərə və təfriqə yaratmağa çalışanlara həqiqətən böyük zərbə idi. Tehrana qayıdanda görüşlərin nəticəsi haqda imama məlumat verdim. Gördüm ki, o ruhani insanın nurlu qəlbi sevindi, bu sevincin əlamətləri onun pak simasında göründü.

Əvvəldən imamın fikri bu idi ki, xalq müsəlman və mömin olduğuna görə inqilabı və İslamı istəyir. İnqilabla və İslam Repsublikası ilə müvafiq olmayan əslində İslamla müvafiq deyil. Əks təqdirdə, İslama etiqad bəsləyən bir adam İslam əsasında qurulmuş bir respublikaya nə üçün qarşı çıxmalıdır?! İslam inqilabına müxalif olanlar İslama müxalifdirlər.

Kürdüstan, Qərbi Azərbaycan və Kermanşah vilayətlərinin kürd xalqının nümayəndələrinin beyət mərasimində çıxışdan: 2007.

**İmamın hətta fəlsəfi məktəbinin müxaliflərindən olan himayədarları**

Biz hövzədə dözümlülük səviyyəsini yüksəltməliyik. Bəli, birində fəlsəfi təmayül var, birində irfani, birində fiqhi. Ola bilsin bir-birlərini də qəbul etməsinlər. Mən bir neçə ay öncə Məşhəddə dedim ki, mərhum ağa Şeyx Müctəba Qəzvini Mütəaliyə fəlsəfəsinə və Molla Sədranın üslubuna qarşı idi. Onun bu barədə çox kəskin fikirləri vardı. İmam isə Molla Sədra məktəbinin xülasəsidir. Təkcə fəlsəfədə yox, irfanda da belədir. Amma mərhum ağa Şeyx Müctəba imamı nəinki qəbul, hətta təbliğ də edirdi; nə qədər ki, sağ idi, imamı təbliğ etdi. O, imamı görmək üçün Məşhəddən Quma gəldi. Mərhum ağa Mirzə Cavad Tehrani Məşhəddə həmin məktəbin görkəmli şəxsiyyətlərindən idi, amma cəbhəyə getdi, imamın televiziyadan yayımlanan Həmd surəsinin təfsirinə də qarşı çıxdı. Mənim özümə dedi; həm o, həm mərhum ağa Mirvaridbuna qarşı çıxmışdılar, amma imamı müdafiə də edirdilər. Üslub və məktəb baxımından müxalif, siyasi, ictimai və dostluq münasibətləri baxımından isə bir idilər, bir-birinə dözürdülər. Qumda belə olmaq lazımdır.

Ölkənin elm hövzələrinin müəllimləri, tədqiqatçıları, ruhani və təbliğatçıları ilə görüşdə çıxışdan: 2007.

## İmam həqiqi bir müəllim kimi

Xürrəmşəhrin azad edilməsi çox böyük bir qələbə idi. Xatırlayanlar bilirlər ki, 1982-ci ildə əldə olunan bu qələbə çox möhtəşəm bir iş idi; həm siyasi cəhətdən mühüm idi, həm hərbi cəhətdən çox mürəkkəb və mühüm idi, həm də ictimai cəhətdən, ümumi baxış və ictimai rəy cəhətindən çox əhəmiyyətli və təsirli idi. Hər cəhətdən böyük iş idi. Müxtəlif yerlərdən çoxlu insanlar gəldilər. Mən o zaman prezident idim. Beş, altı, bəlkə də yeddi ölkənin prezidentləri gəlib burada bizimlə görüşdülər və açıq şəkildə dedilər ki, bu böyük qələbədən sonra sizin vəziyyətiniz fərqlənmişdir. Yəni hadisənin daxili və xarici əhəmiyyəti bu qədər böyük idi. İmam həqiqətən bir əxlaq müəllimi idi. Bu qədər möhtəşəm və böyük bir hadisə baş verdi, o saat küçələrdə xalqın ruhiyyəsində bunun təsiri göründü və imam dərdi hiss edib dərhal dərmanını verdi: "Xürrəmşəhri Allah azad etdi".

Bunun mənası o idi ki, bu qədər çətinlik görmüş, bu qədər əziyyət çəkmiş komandirlər - biz bu Beytülmüqəddəs əməliyyatında çoxlu böyük şəhidlər verdik - bütün bu zəhmətlərə və bu böyük qələbəyə görə qürurlanmasınlar, hakimiyyətin başında oturan siyasilər bu sahədə yaranmış böyük qələbəyə görə məğrur olmasınlar: "(Ey Peyğəmbərim! Düşmənlərin gözünə bir ovuc torpaq) atdığın zaman sən atmadın, Allah atdı".[1]

Dövlət Şurasının üzvləri ilə görüşdə çıxışdan: 2009.

---

[1] Ənfal/17.

## Güzəşt, nəsihət və tədbir

İnqilabdan öncə və mübarizə illərində birləşmiş bəzi qruplar arasında inqilabın əvvəlində fikir ayrılıqları əmələ gəldi. İmam bu fikir ayrılıqlarının hamısına qarşı eyni cür rəftar etmədi. Əmirəlmömininin prinsipi olaraq qeyd etdiyimiz kimi, imam da əvvəlcə güzəştə getdi, nəsihət etdi, lazım olanda isə tədbir gördü. Bir qrup müvəqqəti hökumət və onların problemləri idi. Bir qrup Qisas layihəsi əleyhinə çalışanlardan, bir qrup da hətta terrorçuluğa və küçə döyüşlərinə əl atan şəxslərdən ibarət idi. İmam bunların hər birinə qarşı bir cür rəftar etdi. Hökumətin zirvəsində də ixtilaf vardı. Baş nazir, prezident, hətta sonralar, imamın ömrünün axırlarında prezidentdən yuxarı səviyyələrdə də münaqişələr yarandı. İmam artıq güzəştin mümkün olmadığını hiss etdiyi şəxslərə qarşı tədbir gördü. Onların hamısının inqilabçı və dini keçmişləri vardı, çoxları da böyük şəxsiyyətlər idilər. Lakin nəticə belə oldu, bu ayrılıqlar baş verdi. Bəziləri həqiqətən imamla vuruşdular, bəzilərinin isə fikir ayrılıqları vardı, dava-dalaş və parçalanma ilə nəticələnmədi. Bəzi qüvvələr imamla vuruşdular və imamın güzəştinə saymazlıq etdilər. Münafiqlər qrupu imamla görüş istəmişdi, imam xəbər yolladı ki, siz haqqa boyun əysəniz, mən sizinlə görüşə gələrəm; bu yanlış işlərdən əl çəksəniz, mən özüm sizin ayağınıza gələrəm. Yəni imam onlara bu qədər güzəştə getdi. Təhlükə hiss olunduqda, xüsusən də quruluşun və inqilabın içinə yanlış əsasların daxil olması məsələsi gündəmə gələndə isə artıq öldürücü zəhər kimi oldu. O zaman imam güzəştə getmədi və tədbir gördü. Bu, köklü ixtilaflara aiddir.

Tehranın cümə nam

azı xütbələrindən: 2009.